

## “Azərbaycan-Türkiyə memorandumunun əhəmiyyəti böyükdür”

2

Səs
№ 051 (6492) 19 mart 2022-ci il. Qiymәti 60 qәpik

# “Novruz bayramı xalqımızın mədəni sərvətlər xəzinəsində layiqli yer tutur”



2

Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

# NOVRUZ əcdadlarımızın bizə töhfəsi, onlardan qalmış mirasdır!



8

*Azərbaycan xalqı çoxəsrlik tarixə malikdir. Bu tarixdə milli soy-kökümüzdən qaynaqlanaraq fərdi xüsusiyyətimizə çevrilən elə adət-ənənələrimiz vardır ki, onlar kimliyimizi ortaya qoyan, sübut edən amillərdir. Və əsrlərdir, yaşadılaraq bu günümüzədək gəlib çıxan adət-ənənələrimiz müasir dövrümüzdə xalqımızın tarixi kökünü bir daha açıqlayır, bu millətin tarix qədər yaşı olduğunu təsdiqləyir.70 il sovet imperiyasının müstəmləkəsində olan bir xalq öz tarixini, milli adətlərini, mentalitetini çətinliklərlə üzləşə-üzləşə saxlaya bilmişdirsə, bu onun göstəricisidir ki, həmişə soy-kökünə sadiq olan azərbaycanlılar onu qorumağı bacarmışlar.*



4

## “Bu sənəd partiyada vahid uçot sisteminin yaradılmasını nəzərdə tutur”

Martın 18-də Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib. SİA-nın verdiyi məlumata görə, iclasda Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, Auditorlar Palatasının sədri Vahid Novruzov, YAP Təftiş Komissiyasının üzvləri...

## Düşünülmüş insan qətli



13

Terrorizm müasir dövrün ən təhlükəli təzahürlərindən biridir və müasir dünya bunun acı nəticələrini hələ də yaşayır. Terrorizm haqqında birmənalı tərif olmasa da, mütəxəssislərin əksəriyyətinin qənaətinə görə siyasi, dini, ideoloji və iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni əməllərin, zorakılığın, gücün, hədənin tətbiq olunmasıdır. Təbii ki, real həyatda terror aktlarından daha çox günahsız insanlar, dövlət adamları ziyan çəkir və siyasi, etnik, dini və s. zəmində yaranan terrorların şahidi oluruq

## Novruz süfrəsi neçəyə başa gəlir?



*Dəyişkən havası-na, daim əsən küləyinə nəzər salsaq Bakıda yazın gəlişi bir o qədər də hiss olunmur. Bir gün günəşli, bir gün çirkinli havası ilə Bakı daha çox payızı xatırladır Bayramın çoxları üçün əsas atributu isə bayram günü açacağımız süfrə, o süfrəyə düzəcəyimiz naz-nemətdir...*

15

## Məşhur sima boşanır?

16



Məşhur türk sima Ebru Şallı 2019-cu ildə Uğur Akkuşla evlənib. SİA xarici mətbuata istinadən xəbər verir ki, xoşbəxt ailə quran Şallı sosial şəbəkədəki səhifəsindən Akkuş...

## Müharibə nəticəsində hansı məhsullar bahalaşacaq?

10

*“Rusiya Azərbaycan idxalında və eyni zamanda, qeyri-neft ixracatında əsas ticarət tərəfdaşıdır. Azərbaycan Rusiya ilə il ərzində 2,1 milyard dollara yaxın məhsul idxal edib. Rusiyadan idxal edilən məhsulların strukturuna diqqət yetirsək buğdanın xüsusi yer tutduğunu görərik”.*





## Bu cür “millət” yalnız erməni ola bilər!

14

*Erməni xalqının içində normal düşüncəli, hadisələrdən doğru nəticə çıxaran insanların cüzi olsa belə, mövcudluğu qənaətinə gələ bilərik.*



## Alves: “Messi ”Barselona”dan getməyə məcbur oldu”

16

*“Barselona"nın müdafiəçisi Dani Alves Lionel Messinin PSJ-də oynamasını yersiz sayır.*

# "Novruz bayramı xalqımızın mədəni sərvətlər xəzinəsində layiqli yer tutur"

## *Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib*



***Azərbaycan Prezidenti İlham Əliyev Novruz bayramı münasibətilə xalqımızı təbrik edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı qədim köklərə malik Novruz bayramının xalqımızın mədəni sərvətlər xəzinəsində layiqli yer tutduğunu, ulu əcdadımızın zəngin daxili aləminin və nikbin dünyagörüşünün dolğun təcəssümü olan bu el bayramının yüzillərdən bəri varlığımızın ən dərin qatlarına nüfuz etdiyini, milli özünüdərkin təşəkkülünə töhfələr verdiyini, ali dəyərlərin daşıyıcısına çevrilərək insanlarımızı vahid mənəviyyat ətrafında daim bir-birinə yaxınlaşdırdığını vurğulayıb.***

Təbrikdə deyilir: "Tariximizin taleyüklü anlarında gələcəyə inamımızı biz, eyni zamanda, Bahar bayramının bəxş etdiyi mənəvi güc sayəsində qoruyub saxlamışıq. Qloballaşma dalğasının vüsətli dövründə Novruz ənənələrinin müqəddəs ərməğan kimi uca tutulması və bütün rəngarəngliyi ilə yaşadılması çoxəsrlik mədəni irsimizə ehtiramımızın ifadəsidir.

Məhz parlaq Zəfərimizin qatqat gücləndirdiyi xoş bahar ovqatı içində, artıq ikinci ildir ki, azadlığına qovuşmuş torpaqlarımızda hazırda yüksək sürətlə genişmiqyaslı bərpa və quruculuq işləri aparılmaqdadır. Yaz ətirli bayramımız bizi daha şövqlə çalışıb indi rahat nəfəs alan bu doğma yurd yerlərini qısa müddətdə abadlaşdırmağa və öz əvvəlki dinc həyatına qaytarmağa ruhlandırır.

Vətənimizin ərazi bütövlüyü naminə canlarından keçmiş igid övladlarımızın xatirəsini bu bayram günlərində minnətdarlıqla yad edir, ölkənin müdafiəsində mətinliklə dayanan Azərbaycan əsgərinə təbriklərimi yetirirəm".

Prezident əmin olduğunu bildirib ki, xaricdəki soydaşlarımızın bizimlə birgə azərbaycançılıq məfkurəsi işığında baharı qarşılamaları onların qəlbində yurdumuza bağlılıq hisslərini daha da möhkəmləndirəcək.

"İrəlidə bizi ümumxalq əhəmiyyətli mühüm vəzifələrin həlli gözləyir. İnanıram ki, hər birimiz yaz fəslinin yeniləşdirici ab-havası ilə həmahəng ruh yüksəkliyi və həmrəylik şəraitində qurub-yaratmaq əzmi nümayiş etdirəcək, Qarabağa böyük qayıdış planımızı uğurla gerçəkləşdirəcəyik.

Hamınıza bahar əhval-ruhiyyəsi arzu edirəm. Qoy bu əziz bayram hər evə, hər ocağa bol sevinc, ruzi-bərəkət və firavanlıq gətirsin!", - deyə Prezident İlham Əliyev xalqımıza xoş arzularını çatdırıb.

## Jan-İv Lö Drian: "Fransa Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması səylərini dəstəkləyir"

Martın 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Fransa Respublikasının Avropa və xarici işlər naziri Jan İv Lö Drian arasında telefon danışığı olub. XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər, regiondakı vəziyyəti, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər.




Danışıq zamanı nazirlər Azərbaycan tərəfindən təqdim edilmiş beş baza prinspinə toxunublar. Jan İv Lö Drian Fransanın Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması səylərinə dəstəyini ifadə edib. Tərəflər, həmçinin Ukrayna ətrafındakı mövcud vəziyyətə dair fikir mübadiləsi aparıblar. Telefon danışığı zamanı nazirlər, ikitərəfli gündəliyin aktual mövzuları və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

## Avropa Azərbaycanlıları Konqresi Avropa Parlamentinin qərəzli qətnaməsi ilə bağlı bəyanat yayıb


AVROPA AZƏRBAYCAN KONQRESİ — EUROPEAN AZERBAIJAN CONGRESS — EUROPEAN AZERBAIJAN CONGRESS

Headquarters of European Azerbaijani Congress
Rue du Marché Aux Herbes 79
Brussels 1000

Phone: +31651553029
E-mail: info@aak-org.eu
Web: www.aak-org.eu

Brussel 17.03.20

European Azerbaijanis Congress

STATEMENT

Concerning European Parliaments resolution against Azerbaijan dated 10 March 2022

The European Parliament passed another biased resolution directed against Azerbaijan on 10 March 2022.

This resolution which is entirely based on thefalse information fed by Armenia and the Armenian Lobby in the European Parliament, distors the realities emanating from the 30-years long period of occupation of the Azerbaijani lands, including the facts of vandalism towards our cultural heritage sitauted in thoseareas, and calling into question the territorial integrity and sovereignty of Azerbaijan whilst also damaging the efforts made to estabiish lasting peace and stabilityin the region.

Whilst it is alien to our thoughtsto comment on this partial resolution of the European Parliament in any detail, we would still wish to emphasize the certain points made in it.

It should be mentioned that the resolution of the European Parliament denies completely the vandalism of Armenia towards the cultural heritage of Azerbaijan during the 30 year long occupation timespan. The numerous monumentsof history culture and religion,archaeological excavation sites, libraries and museums as well as museum artefacts, unique handwritten documentsand tombs had been turned to ruins on purpose.Mosques had been razed on the ground or desecrated by being turnedto cowsheds or pigsties.

The European Parliament presents the monuments of culture that it claims belong to the Armenians as parts of the ancient Christian Heritage and the general humankind heritage too.

The resolution of the European Parliament will fail to darken the elevated national, moral and cultural values of the people of Azerbaijan.

We strongly condemn the attempt by the European Parliament to spread false claims in a most biased fashion and wecall for the avoidance of provocations liable to harm the process of normalization in the region.

Kind regards,

Sahil Gasimov

President European Azerbaijanis Congress

European Azerbaijanis Congress

Avropa Azərbaycanlıları Konqresi Avropa Parlamentinin martın 10-da Azərbaycan Respublikasına qarşı qəbul etdiyi qətnamə ilə bağlı bəyanat yayıb. AZƏRTAC xəbər verir ki, sənəddə Avropa Parlamentinin bu addımla ölkəmizə qarşı növbəti dəfə qərəzli mövqe nümayiş etdirdiyi vurğulanır. Bəyanatda qeyd olunur ki, Avropa Parlamenti Ermənistanın və erməni lobbisinin həqiqətləri təhrif edən məlumatlarına əsaslanaraq, 30 ildən artıq erməni işğalı altında olan Azərbaycan torpaqlarında mədəni irsimizə vurulan zərərə, müxtəlif vandalizm aktlarına biganəlik nümayiş etdirir, Azərbaycan mədəniyyətinə, tarixinə, etnoqrafiyasına qarşı törədilmiş terrorizmə etinasızlıq göstərir və bir daha ölkəmizə qarşı ikili standartlar tətbiq edir.

"Avropa Parlamenti Azərbaycana qarşı qəbul etdiyi qeyri-obyektiv, qərəzli qətnamə faktları təhrif edir, bölgədə sülhün və sabitliyin bərqərar olması səylərini zəiflədir. Bu qərar torpaqlarımızın Ermənistan tərəfindən 30 illik işğalı zamanı Azərbaycanın mədəni irsinə qarşı törədilmiş vandalizmi inkar etmək, onu görməməzlikdən gəlmək məqsədi daşıyır. Avropa Azərbaycanlıları Konqresi Avropa Parlamentinin qərəzli qətnaməsini şiddətlə qınayır və təxribat xarakterli bu kimi aksiyalardan yayınmağa çağırır", - deyə bəyanatda bildirilir.

# "Azərbaycan-Türkiyə memorandumunun əhəmiyyəti böyükdür"

***"Azərbaycanla Türkiyə arasında iqtisadi sahədə əməkdaşlıq çoxvektorludur. Enerji sektorunda əməkdaşlıq isə iki ölkə arasında iqtisadi əlaqələrin mühüm qolunu təşkil edir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov bildirib.***



Onun sözlərinə görə, indiyədək Azərbaycan və Türkiyənin birgə səyləri sayəsində bir neçə nəql marşrutunun yaradılması da iki ölkə arasında enerji sektorunda fəal əməkdaşlığın göstəricisidir: "Xəzər və Qara dənizləri birləşdirən Bakı-Supsa neft kəməri, Bakı-Tbilisi-Ceyhan kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Cənub Qaz Dəhlizi, Trans-Anadolu Qaz Boru Kəməri (TANAP), Trans Adriatik Qaz Boru Kəməri (TAP) kimi layihələrin hər biri iki qardaş ölkə arasında olan bağları daha da möhkəmləndirməkə yanaşı həm də hər iki ölkənin iqtisadi mənfəət etməsi üçün real imkanlar yaradıb. 2021-ci ilin əvvəlindən başlayaraq Xəzərin Azərbaycan sektorundan çıxardılan "mavi yanacaq" Türkiyədən keçməklə Avropa ölkələrinə çatdırılır. Ötən dövrdə İtaliya, Yunanıstan və Bolqarıstan 7,2 milyard kubmetr həcmində Azərbaycan qazı ilə təchiz olunub. Bu il bu rəqəm 9 milyard, 2023-cü ildə isə ən azı 11 milyard kubmetrə çatdırılacaq. Təkcə 2018-21-ci illər arasında qardaş Türkiyəyə TANAP-la 13,6 milyard kubmetr təbii qaz nəql olunub. Ümumiyyətlə isə Türkiyənin qaz bazarına 2007-ci ildən indiyə kimi "Şahdəniz" yatağından 85 milyard kubmetrdən çox təbii qaz ötürülüb. Haqqında danışdığımız qaz anlaşması ilə bağlı Memorandum isə keçən il dekabrın 22-də Bakıda Azərbaycan-Türkiyə 1-ci Enerji Forumu zamanı imzalanıb. Həmin sənəd bu ilin yanvar ayının 10-da Türkiyə prezidenti R.T.Ərdoğan tərəfindən təsdiq edilmişdi, dünən isə Azərbaycan Prezidenti də müvafiq sənədi təsdiq edib. Təsdiq edilmiş sənədə əsasən Türkiyə 2024-cü il dekabrın 31-ə qədər hər il Azərbaycandan aldığı qazın 1,7 milyard kubmetrə qədər hissəini SOCAR Turkey Petrokimya AŞ -yə satacaq. Yəni başqa sözlə Türkiyənin dövlət şirkəti olan BOTAŞ SOCAR Türkiye Enerji"nin neft-kimya qolu olan "SOCAR Turkey Petrokimya" AŞ-yə ildə 1,7 mlrd. kubmetr qaz tədarük edəcək. Qeyd olunan həcmlər "SOCAR Türkiye Enerji"nin ehtiyaclarının ödənilməsinə yönəldiləcək.

Bundan əlavə, sənədə görə, tərəflər mövcud qaz boru kəmərlərinin, o cümlədən Bakı-Tbilisi-Ərzurum və Trans-Anadolu Təbii Qaz boru kəmərlərinin mövcud texniki imkanlarından maksimum istifadə etmək üçün Azərbaycandakı hasilat layihələri üzrə hasil olunacaq və ya Azərbaycan vasitəsilə nəql olunacaq əlavə təbii qaz həcmlərinin ötürülməsi üçün səylərin artırılması nəzərdə tutulub. Sənəddə bu xüsusda Türkiyə tərəfinin bu növ təbii qaz həcmlərinin Türkiyənin təbii qaz bazarı daxilində ticarəti üçün bütün zəruri dəstəyi verəcəyi də öz əksini tapıb".

***Banuçiçək Hüseynli***

*Mənəvi dəyərlərimizin əbədiyaşarlıq rəmzi olan Novruz bayramını qeyd edirik. Elimizə, obamıza Novruz gəlib. Yeni gün, yeni müjdə gəlib. İlıq nəfəsi ilə elimizə yaz gəlib. Yazın gəlişi ilə bütün canlı təbiət yenidən oyanıb. Soyuq qış günlərindən sonra yazın gəlməsi insanlarda böyük əhvali-ruhiyyə yaranıb. Bu bayrama tarixi inkişaf boyunca baxdığımız zaman onun qədim mədəni köklərə və mənəvi qaynaqlara bağlı olduğunu görürük. Keçmişdə olduğu kimi, bu gün də Azərbaycanda, digər türk dövlətlərində və bir çox qonşu ölkələrdə Novruz Bahar bayramı kimi qeyd olunmaqdadır.*

# Novruz birlik, xoş niyyətlər və xoş arzular bayramıdır





Orta əsr müəllifləri Şərq ölkələrində İslam dini yayıldıqdan sonra da Novruz bayramında yaz ənənələrinin, əkinçilik təqvimi etiqadlarının möhkəm yer tutduğunu göstərirlər. Novruz bayramı haqqında müxtəlif rəvayətlərə, onun yaranması səbəblərinə, bu bayram münasibətilə xalq arasında yayılmış adət-ənənələrə yazılı nümnələrdə rast gəlirik. Novruzun gəlişi klassik Şərq, o cümlədən Azərbaycan poeziyasında geniş yayılmış "Bahariyyə" adlı lirik şeirlərdə də təsvir və tərənnüm edilir. Böyük mütəfəkkir Hüseyn Cavidin bahara həsr etdiyi şeirində Novruz bayramı belə təsvir olunur:

İştə novruz! Yetişdi fəsli-bahar.
Gəldi işrət zamanı, qardaşlar!
Nə gözəl bayram Ah, nə xoş fürsət!
Sayılır əhli-zövqə bir nemət!..
Böylə şad gün düşərmi bir də ələ?
Keçirin beş gün ömrü ləzzət ilə.

Bu gün artıq müstəqil dövlətimizdə Novruz bayramı dövlət səviyyəsində qeyd olunur. Bu bizimi milli dəyərlərimizə, adət və ənənələrimizə dövlətimiz tərəfindən verilən qiymətdir. Dövlətin milli-mənəvi dəyərlərimizə olan münasibəti onun prioritet istiqamələrdəndir. İslami, milli dəyərlərə yeni prizmadan baxış ictimai düşüncənin formalaşmasında özünü göstərir. Bu amillər zaman-məkan kontekstində həllini tapır. Müasir dünyada baş verənlər qloballaşma və inteqrasiya prosesində ölkəmizin uğurlu gələcəyini təmin etmək üçün tarixi köklərimizə söykənir. Azərbaycan Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü siyasəti və xalqa göstərdiyi yüksək diqqət və qayğısı Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunması və beynəlxalq səviyyədə təbliği məqsədinə istiqamətlənmişdir.

Xalqın etnik tarixi inkişafı bir çox maddi və mənəvi amillərlə tənzimlənən mürəkkəb bir prosesdir. Son illərdə Azərbaycanın milli-mənəvi mədəniyyətinin tarixi mənzərəsinə nəzər salaraq, onun əsas inkişaf vasitələrini üzə çıxarmağa çalışsaq, hər şeydən əvvəl, mövcud amillərin rol oynadığını görərik. Dünyada milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutub. Uzun illər aparılan tədqiqatlar zamanı aydın olub ki, qədim köklərə malik Azərbaycan əsrlər boyu maddi və mənəvi xəzinəsini qoruyub-saxlaya bilmişdir. Bu zəngin irsdə xalqın soykökünə bağlı olan adət-ənənələr yaşayaraq, əsrimizə və yeni yüzilliyə qədər gəlib çatmışdır.

## "ÖZÜNDƏ İNSANLIĞA XAS ALİ DƏYƏRLƏRİ CƏMLƏŞDİRMİŞ BU BAYRAMIN UNESCO TƏRƏFİNDƏN ÜMUMBƏŞƏRİ İRSİN ŞAH ƏSƏRLƏRİ SIRASINA DAXİL EDİLMƏSİ HƏR BİRİMİZ ÜÇÜN İFTİXAR MƏNBƏYİDİR"

Ümummilli Lider Heydər Əliyevin ideyalarının qorunması və davam etdirilməsində rolu olan Heydər Əliyev Fondunun da bu istiqamətdəki məqsədyönlü fəaliyyətini qeyd etməliyik. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun sədri, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə Azərbaycanın milli-mənəvi dəyərlərinin dünyaya inteqrasiya olunmasında böyük əhəmiyyətə malikdir. Heydər Əliyev Fondu ölkənin mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə Ümummilli Liderin zəngin irsindən bəhrələnərək, bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasına nail olur. Azərbaycanın məxsusi dəyərlərinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı planlı işlər həyata keçirir. Mehriban xanım Əliyevanın, bilavasitə təşəbbüsü və təşkilatçılığı ilə həyata keçirilən tədbirlər ölkəmizin dünya ictimaiyyətinə tanıdılması, xalqımızın maddi-mənəvi irsinin və milli adət-ənənələrinin təbliği sayəsində atılan ciddi addımlardır. Azərbaycan xalqının milli sərvəti olan muğam və aşıq sənətindən sonra, milli adət-ənənələrimizi özündə əks etdirən və öz orijinallığı ilə seçilən Novruz bayramımız 2009-cu il sentyabrın 30-da YUNESKO tərəfindən Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmiş, 2010-cu il 23 fevralda isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i "Beynəlxalq Novruz Günü" elan edilmişdir. Novruz bayramının YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsi və Beynəlxalq Novruz Günü elan edilməsi milli adət-ənənələrimizin dünyəviliyini, bəşəriliyini, ona irqindən, dinindən asılı olmayaraq, bütün millətlərin maraq göstərməsini təsdiqlədi. Bu, Azərbaycanın tarixiliyini, özünəməxsusluğunun dünyada işıqlandırılmasına və irsin bəşəriliyini ifadə edən faktor kimi ortaya qoyulması ilə səciyyələndi. Beynəlxalq çərçivədə qəbul edilən Azərbaycan milli xəzinəsi dünyanı təəccübləndirmək iqtidarındadır. "Baharın yurdumuza hər gəlişi əsrlərin yaddaşında iz qoymuş mərasimlərimizə uyğun, yüksək təntənə ilə qeyd olunur", - deyən Cənab Prezidentin bildirdiyi kimi qloballaşma dalğasının geniş vüsət aldığı və ənənəvi dəyərlərin sürəkli dəyişikliklərə məruz qaldığı bir zamanda Novruz bayramı tarixi-mədəni irsə bağlılığımızın ifadəsinə çevrilmişdir: "Özündə insanlığa xas ali dəyərləri cəmləşdirmiş bu bayramın UNESCO tərəfindən ümumbəşəri irsin şah əsərləri sırasına daxil edilməsi hər birimiz üçün iftixar mənbəyidir".

Hər il müsəlman dünyasının həvəslə qarşıladığı və yola saldığı Novruz bayramı xalqın tarixi kökünü və adət-ənənələrini özündə yaşadır. Bayramın qeyd olunmasına qədər, bildiyimiz kimi, dünyanın və insanın yaranması ilə bağlı müqəddəsləşdirilmiş Su, Od, Yel və Torpaq çərşənbələri qeyd olunur. Xalqın erkən düşüncəsində yaratdığı çərşənbələrə bağlı ayin və etiqadları, adət-ənənələri yaşatmaq hər kəsin mənəvi dünyasının tələbatından irəli gəlir. Dörd Çərşənbənin qeyd olunmasının arxasında həqiqətlər dayanır. Folklorşünas alimlərin fikrincə, bu çərşənbələr insanın həyata gəlişi və həyatın canlanması ilə əlaqədardır. Novruz bayramı təbiətlə bağlı Su, Od, Yel, Torpaq ilə bağlı dörd əsas arxaik xüsusiyyətləri özündə saxlamaqla yanaşı, cəmiyyətdə humanist insani münasibətlərin məntiqini ifadə edən bəşəriliyilə seçilir.

## "NOVRUZ BAYRAMINI CIDIR DÜZÜNDƏ QEYD EDİRİK, TARİXİ ƏDALƏTİ BƏRPA ETMİŞİK"

Azərbaycanın qədim, rəngarəng mənəvi dəyərləri, mədəni irsi xalqın fəxr mənbəyi və dünya mədəniyyətinə töhfəsi qismində çıxış edir. Bu sahəyə dövlət qayğısının günü-gündən artması və beynəlxalq təcrübənin tətbiqi istiqamətində görülən işlər qeyri-maddi mədəni irsin gələcəyinə nikbin baxmağa ümidləri artırır. Beynəlxalq ictimaiyyətin diqqət və maraq mərkəzində olan, Azərbaycan xalqının adət və ənənələrini, milli-ənənəvi xüsusiyyətlərini özündə əks etdirən, soydaşlarımıza və ölkə vətəndaşlarımıza sevinc bəxş edən Novruz bayramı dövlət səviyyəsində qeyd olunur. Xalqımız bu gözəl bayramı gözəl nəticələrlə, yaxşı əhval-ruhiyyə ilə qarşılayır. Təbiətin insanlara töhfəsi olan Novruz bayramının hər gəlişi əsrlərdən bəri Azərbaycanda bolluğun, bərəkətin, xeyirxahlığın və birliyin təcəssümü kimi qəbul edilmişdir. Gecə ilə gündüzün bərabərləşdiyi ilk bahar günündə yurdumuza qədəm qoyan bu bayram insanları daim birliyə, sülhə və əmin-amanlığa çağırır. Əsrlərin sınağından çıxan Novruz milli adət və ənənələrimizi nəsillərdən-nəsillərə ötürərək bu günlərə gətirib çıxaran bayram kimi əhəmiyyətlidir.

Azərbaycan xalqı artıq iki ildir ki, daha böyük sevinc və yüksək əhvali-ruhiyyə ilə bayramı qarşılayır. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, şanlı Ordumuzun gücü ilə işğaldan azad edilən əzəli-əbədi torpaqlarımızda 30 ildən sonra Novruz sevinci yaşanır, bayram tonqalları qalanır. Ötən il, işğaldan sonra ilk dəfə Prezident İlham Əliyevin Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Şuşada Cıdır düzündə bayram tonqalını alovlandırması, tonqal ərafında səsləndirdiyi fikirlər düşmənə, onların havadarlarına daha bir mesaj oldu. Cənab İlham Əliyev müraciətində belə deyirdi: "Bu, böyük xoşbəxtlikdir. Allah Azərbaycan xalqının dualarını eşitdi. Hər il Novruz bayramı ərəfəsində hamımız yəqin ki, fikirləşirdik, bir-birimizə deyirdik, inşallah, gələn il Novruz bayramını Qarabağda qeyd edək, gələn il Novruz bayramını Şuşada qeyd edək və bu gün gəldi. 28 ildən sonra biz Şuşaya qayıtdıq. Novruz bayramını Cıdır düzündə qeyd edirik, tarixi ədaləti bərpa etmişik".

Bayram tonqalını alovlandıran Prezident İlham Əliyevin səsləndirdiyi bu fikirlər hər bir azərbaycanlıda qürur və iftixar yaratmış oldu. Novruz bayramınız MÜBARƏK! . Bu bayram hər bir ailəyə bol ruzi və sevinc bəxş etsin!

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Bu sənəd partiyada vahid uçot sisteminin yaradılmasını nəzərdə tutur”




## *YAP-ın İdarə Heyətinin növbəti iclası keçirilib*



Martın 18-də Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib. SİA-nın verdiyi məlumata görə, iclasda Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, Auditorlar Palatasının sədri Vahid Novruzov, YAP Təftiş Komissiyasının üzvləri və partiyanın yerli təşkilatlarının sədrləri də iştirak edib. İclasın müzakirəsinə ”Yeni Azərbaycan Partiyasının 2021-ci il üzrə Maliyyə hesabatları” və ”Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı və yerli təşkilat Aparatları tərəfindən mühasibat uçotunun aparılması, maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi üçün qəbul edilən konkret prinsiplər, əsaslar, qaydalar və metodların məcmusunu əks etdirən, eləcə də maliyyə-təsərrüfat əməliyyatları üzrə bir sıra normativləri müəyyən edən uçot siyasəti” sənədinin təsdiq edilməsi məsələləri daxil edilib.





YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Yeni Azərbaycan Partiyasının 2021-ci il üzrə maliyyə hesabatlarını müstəqil auditor rəyi ilə birlikdə iclas iştirakçılarına təqdim edib.

İclasın gündəliyinin ikinci məsələsi olan ”Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı və yerli təşkilat Aparatları tərəfindən mühasibat uçotunun aparılması, maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi üçün qəbul edilən konkret prinsiplər, əsaslar, qaydalar və metodların məcmusunu əks etdirən, eləcə də maliyyə-təsərrüfat əməliyyatları üzrə bir sıra normativləri müəyyən edən uçot siyasəti” sənədini təqdim edən YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, bu sənəd siyasi partiyaların fəaliyyətini tənzimləyən qanunvericilik və bir sıra normativ-hüquqi sənədlər əsasında hazırlanmışdır və partiyada vahid uçot sisteminin yaradılmasını nəzərdə tutur.

YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov sənədin mahiyyəti haqqında ətraflı məlumat verib. Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov və Auditorlar Palatasının sədri Vahid Novruzov sənədə dair müsbət rəyini bildirərək qeyd ediblər ki, bu sənəd Azərbaycan Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi şəffaflıq strategiyasına uyğundur. Daha sonra YAP İdarə Heyətinin üzvləri Bahar Muradova, Hikmət Məmmədov, Rəşad Mahmudov, Ramiz Hüseynov və Elmar Qasımov çıxış edərək sənədin əhəmiyyətini vurğulayıblar.

Müzakirələrdən sonra hər iki sənəd təsdiq olunub. İclasa yekun vuran YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına təqdim ediləcəyini bildirib, iclas iştirakçılarını qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edib.

Yeni Azərbaycan Partiyasının 2021-ci il üzrə Maliyyə hesabatları və müstəqil auditor rəyi

# “Bu gün Azərbaycan öz gündəliyində yeni səhifə açıb, bu, azad olunmuş ərazilərin yenidən qurulması ilə bağlıdır”

***Martın 18-də Şuşa şəhərində Azərbaycan-BMT tərəfdaşlığının 30 illiyinə həsr olunmuş toplantı keçirilib. Tədbirdə Azərbaycan Respublikasının yüksək səviyyəli dövlət və hökumət rəsmiləri, BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisi, BMT-nin Azərbaycandakı qurumlarının rəhbər şəxsləri iştirak ediblər.***



Toplantı iştirakçıları əvvəlcə təyyarə ilə Qarabağın hava qapısına - Füzuli Beynəlxalq Hava Limanına gəliblər. Aeroport ilə yaxından tanış olduqdan sonra Zəfər yolu ilə Şuşaya səfər ediblər.




Toplantıda çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Azərbaycan BMT-yə qoşulduqdan təxminən iki ay sonra Şuşa Ermənistan silahlı birləşmələri tərəfindən işğal olundu. Azərbaycanlılar öz şəhərindən, yurdlarından didərgin salındı. Ancaq 44 günlük Vətən müharibəsindən sonra Şuşa azad edildi. Bu gün Şuşa öz simasını günbəgün dəyişən və Azərbaycanın sürətlə inkişaf edən, yenidən qurulan bir şəhəridir.

Prezidentin köməkçisi deyib ki, Azərbaycan-BMT əməkdaşlığı 1990-cı illərdən bəri dəyişib. Həmin illərdə Azərbaycan humanitar yardım alan bir ölkə idi. Lakin 30 ildən sonra bugünkü Azərbaycan beynəlxalq ictimaiyyətin və BMT ailəsinin tamhüquqlu üzvüdür.

Azərbaycan ilə BMT arasında əməkdaşlığın tarixinə toxunan Hikmət Hacıyev bildirib ki, Azərbaycan 2012-2013-cü illərdə dünyanın 150-dən çox ölkəsinin səsi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib. Həmin illərdə Azərbaycan BMT-nin prinsip və normalarının reallaşdırılmamasından, Ermənistanın davamlı işğalından əziyyət çəkirdi. Bu gün isə Azərbaycan BMT tərəfindən müəyyənləşdirilən hədəf və missiyaların yerinə yetirilməsinə, xüsusilə də sülh və təhlükəsizliyə töhfə verir”, - deyə Hikmət Hacıyev qeyd edib.

”Bu gün və gələcəkdə bizim əsas prinsipimiz beynəlxalq hüququn prinsiplərini izləmək, onu müdafiə etmək olacaq”, - deyən Prezidentin köməkçisi əlavə edib ki, hazırda Azərbaycan bu prinsipləri rəhbər tutaraq beynəlxalq sülhə və təhlükəsizliyə töhfəsini verir. Ölkəmiz, həmçinin çoxtərəfli yanaşmanı seçib, BMT-nin müxtəlif institutları ilə sıx əməkdaşlıq edir. Təhlükəsizlik sahəsində Azərbaycan sıx əməkdaşlığı davam etdirir və praktiki addımlar ataraq prosesə öz töhfələrini verir. Ölkəmiz BMT Təhlükəsizlik Şurasının mandatı əsasında dünyanın müxtəlif nöqtələrində sülhməramlı missiyaya dəstək verir. Kosovo, Əfqanıstan və digər ölkələrdə Azərbaycanın sülhməramlı missiyası fəaliyyət göstərib. Bu gün Sudanda Azərbaycan sülhməramlıları var.

H.Hacıyev, eyni zamanda, diqqətə çatdırıb ki, bu gün Azərbaycan orta inkişaf edən ölkə statusundadır və onu daha perspektivli gələcək gözləyir. ”Biz bu prosesdə BMT və onun institutlarının verdiyi töhfəni yüksək qiymətləndirik. BMT Azərbaycanı müstəqillik qazandığı ilk illərdən dəstəkləyib”, - deyən Prezidentin köməkçisi vurğulayıb ki, bu gün Azərbaycan öz gündəliyində yeni səhifə açıb, bu, azad olunmuş ərazilərin yenidən qurulması ilə bağlıdır. Bu prosesdə də BMT-ni Azərbaycanın tərəfdaşı kimi görürük. BMT nümayəndələri ölkəmizə səfərləri zamanı artıq ilkin təkliflərini və tövsiyələrini Azərbaycan hökuməti ilə bölüşüblər.

Sonra çıxış edən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, ötən il Azərbaycan dünya ölkələrinə 30 milyon ABŞ dolları dəyərində humanitar yardım göstərib. Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycan pandemiya dövründə 80-dən çox ölkəyə humanitar dəstək verib, həmçinin 5 ölkəni 2 milyon dollar dəyərində peyvəndlə təmin edib. Nazir qeyd edib ki, müharibə başa çatandan dərhal sonra Azərbaycan azad olunmuş ərazilərdə genişmiqyaslı tikinti, yenidənqurma işlərinə başlayıb.

”İşğal dövründə yerlə-yeksan edilmiş bu ərazilərin yenidən qurulması, keçmiş məcburi köçkünlərin ləyaqətli və təhlükəsiz şəkildə öz yurdlarına geri qayıtması, bu ərazilərdə Azərbaycanın erməni əsilli vətəndaşlarının siyasi, iqtisadi və digər sahələrə inteqrasiyası və bərabərhüquqlu vətəndaş olması əsas prioritetlərindəndir. Azad edilmiş torpaqlarda reabilitasiyaya mane olan əsas məqam bu ərazilərin minalarla çirkləndirilməsidir. Bu, məcburi köçkünlərin təhlükəsiz şəkildə qayıtmasına və sürətli yenidənqurmaya əngəl törədir. BMT institutlarının təmsilçilərinin bu regionlara səfəri və baş verənləri öz gözləri ilə görməsi yaxşı olardı. Ümid edirik ki, bu missiyalar gördüklərini öz hesabatlarında əhatəli şəkildə təqdim edəcəklər və konkret təkliflər verəcəklər. Təbii ki, bu hesabatlarda Azərbaycan Hökumətinin qısa zamanda gördüyü işlər də kənarda qalmamalıdır”, - deyə nazir əlavə edib.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva çıxışında vurğulayıb ki, BMT-nin təsisatları işğaldan azad edilmiş ərazilərin bərpası və minalardan təmizlənməsi işlərində Azərbaycana kömək göstərəcək. ”1992-ci il martın 2-də Azərbaycan BMT-yə üzv oldu və bu illər ərzində biz əməkdaşlığımızı gücləndirməyə çalışırıq. Biz Bakıda ilk dəfə ofisimizi açanda münaqişədən əziyyət çəkən qaçqınlara və məcburi köçkünlərə yardım etmişik. 2021-ci il martın 1-də BMT ilə Azərbaycan arasında növbəti beş il üçün əməkdaşlığın əsas istiqamətlərini əks etdirən saziş imzalanıb. Bunlar gender bərabərliyi, ətraf mühit, inklüzivlik və sair məsələlərlə bağlıdır”.

Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev isə çıxışında deyib ki, ətraf mühitin mühafizəsi həmişə ölkəmizin əsas vəzifələrindən biri olub. Bu baxımdan yaşıl inkişaf və ”yaşıl enerji” məsələləri prioritetlərdir. Nazir vurğulayıb ki, Azərbaycan işğaldan azad olunmuş ərazilərdə ”yaşıl enerji”ni inkişaf etdirmək niyyətindədir və bu sahədə əsas diqqət əhalinin təmiz içməli su ilə təminatına yönəlib. Muxtar Babayev Oxçuçayın çirkləndirilməsindən narahatlığını bildirib və qeyd edib ki, bu, bütün regionun ekosistemi üçün böyük təhlükə yaradır.

Çıxışlardan sonra Azərbaycan-BMT əlaqələrinin 30 illiyi ilə bağlı poçt markasının təqdimatı olub. Toplantı panel iclasları ilə davam edib.

# Stanislav Tarasov: “Qərbin dövrü bitdi, dünyanın işləri Moskva-Pekin-Dehlidə həll olunacaq”

***Nüfuzlu rusiyalı politoloq Stanislav Tarasov ”Caliber” analitik mərkəzinə müsahibəsndə Ukraynada davam edən hərbi əməliyyatlar, Rusiya-Qərb qarşıdurması haqda maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.***



***- Deməli, Stanislav Nikolayeviç, Rusiya Avropa Şurasından çıxdı. Sizcə, bu addım Kremlin xarici siyasətinə necə təsir edəcək?***

- Rusiyanın Avropa Şurasından çıxması Rusiyanın xarici siyasətinə heç bir şəkildə təsir etməyəcək. Özləri hələ bizə yalvaracaqlar.

***- Rusiya ilə Avropanın barışıqları, istəkləri üst-üstə düşməyəndə məhz belə olur. Elə həmin gün Strasburq yekdilliklə Rusiyanın Avropa Şurasından çıxarılmasını tövsiyə edən qətnamə qəbul etdi...***

- Qulaq asın, artıq Avropa yoxdur. Avropa bir tərəfdən amerikalılar tərəfindən dağıdılır, digər tərəfdən biz şərqdən gəlirik. Avropa bitir. Nə Avropa, nə danışırsınız?

***- Sonra nə olacaq?***

- Biz bütün Avropa qanunvericiliyini, Avropa standartını ləğv edirik, yeni təhlükəsizlik strukturu formalaşır. Əgər əvvəllər bütün bu məsələlər Avropadan gəlirdisə, indi onlara Moskvada, Pekində, Dehlidə baxılmalıdır. Dünyanın taleyinin həll olunacağı bu 3 dünya paytaxtında. Avropanın qatarı isə yola düşür, bu artıq gedən istiqamətdədir.

***- Avropa Şurası bundan əvvəl Rusiya hakimiyyətinə ölüm hökmünün tamamilə qadağan edilməsi məsələsinə baxmağı və Avropa İnsan Hüquqları Konvensiyasının müvafiq protokollarını ratifikasiya etməyi təklif edib. Rusiyanın AŞ-dən çıxması ilə bu məsələyə yenidən baxıla bilərmi?***

- Bu məsələnin hazırda bizim üçün aktuallığı yoxdur. İndi biz tamamilə fərqli, ən vacib problemləri həll edirik.

***- Ukraynanın taleyini?***

- Bəli. Geosiyasi məsələləri. Ukrayna Rusiyanın təsir zonasına qayıdır. Ölüm cəzası nədir? Müharibə gedir. İnsanlar ölür. Nasist cinayətkarları ilə Ukraynanı doldurdular.

***- Yaxşı. Müharibədən danışaq. Sizcə nə vaxt bitəcək və kimin xeyrinə?***

- Bu aydın deyil ki? Ukraynanın bütün böyük şəhərləri Rusiya qüvvələri ilə əhatə olunub. Müharibəni artıq Kreml qazanıb, indi ancaq taktiki manevrlər var.

***- Müharibə hələ bitməyib...***

- Bəli. Düşünürəm ki, müharibə daha 20 gün davam edəcək. Biz Ukraynanın infrastrukturunu məhv etmək istəmirik, bu, hələ də bizim xalqımızdır, əksər hallarda aldansa da. Ona görə də əməliyyatları maksimum ehtiyatla həyata keçiririk, deyə bilərik ki, zərgər dəqiqliyi ilə işləyirik. Və bu vaxt tələb edir. Orada başqa dövlət olacaq və o çətin ki, əvvəlki kimi Ukrayna adlansın. Böyük ehtimalla ”Rusiya Demokratik Respublikası” olacaq.

***- Yəni hər şey Rusiyanın planı ilə gedir?***

- Bəli, hər şey plan üzrə gedir. Bizim hər hansı narahatlıq bildirməyə əsasımız yoxdur. Mühüm məsələlər o qədər də dərhal həll edilmir və vaxt tələb olunur.

***- Buna baxmayaraq, Rusiya ilə Ukrayna arasında müharibə bütün dünya üçün sürpriz oldu.***

- Sizin üçün gözlənilməz oldu, biz buna hazırlaşırdıq.

***- Bəs nə vaxtdan?***

- 2014-cü ildən. Qərb bizi təhrik etdi. İndi isə Qərblə münasibətlər pozulduqda, nəhayət ki, ”Qərb bizə lazımdırmı” sualı ortadan qalxdı. Qərb bizə lazım deyil.

***- Rusiya Qərbə lazımdırmı?***

- İndi gəlin görək bizsiz necə idarə edəcəklər.

***- Rusiya Çinə tərəf getmək üçün Qərblə əlaqəsini bitirir?***

- Niyə Çinə? Biz özümüzü təmin edən ölkəyik. İndi biz amerikalıları, NATO-nu Çinsiz məğlub etdik. Çin burada bizə niyə lazımdır? Bu, bizim tərəfdaşımız və müttəfiqimizdir, başqa heç nə yoxdur. Çinlilər bu müharibədə iştirak etmirlər.

***- Bu aydındır. Mən Rusiyanın Çinlə inteqrasiyasını nəzərdə tuturam.***

- Rusiya nəhəng ölkədir və inteqrasiya Rusiyaya doğru gedəcək. Biz Çinə inteqrasiya etməyəcəyik. Bunun üçün bizim çoxlu ehtiyatlarımız, imkanlarımız var.

***- Proqnozunuz çox optimistdir.***

- Qələbə qazanmağı nə NATO-dan, nə də Qərbdən yox, Moskvadan öyrənmək lazımdır. Əgər özlərini yaxşı aparmasalar, Portuqaliyanı belə götürərik.

***- Rusiya bütün dünya ilə müharibə dilində danışacaqmı?***

- Moskva bərabərlik dilinə köklənib, lakin Qərb dövlətləri özlərini nalayiq aparsalar, Rusiyadan ağızlarının payını alacaqlarını başa düşməlidirlər. Bəsdir artıq. Yetər. Əgər bizi saymasalar, biz də belə edəcəyik. Biz nə Varşavanı, nə Praqanı, nə də Budapeşti xilas etməyəcəyik. Siz ruslarla belə davrana bilməzsiniz. Ukraynanı aldatdılar, ora millətçilik səpdilər. Rus millətçiliyi, məsələn, tamam başqadır, beynəlmiləldir. İndi Ukraynada müxtəlif xalqların nümayəndələri öz vətənləri Rusiyanın mənafeyi üçün canlarını verirlər. Onları heç kim çağırmır, bizdə Ukraynadakı kimi hərbi xidmətə çağırış, məcburi çağırış yoxdur. Bu amerikalılarla müharibədir. Biz bu amerikalıları məğlub edəcəyik, lazım olsa onlardan kabab da hazırlayacağıq. Rus ayısını özləri oyadıblar. Amma başa düşürsən ki, ayını yuvadan çıxara bilərsən, amma onu geri qovmağın heç bir yolu yoxdur.

***- Üçüncü dünya müharibəsinin baş verməsini dəstəkləyirsiniz?***

- Hansı üçüncü dünya müharibəsi, artıq bu müharibə udulub.

***- Yenə Rusiya qalib oldu?***

- Bəli əminəm.

***- Gözənilməz oldu. O zaman Rusiyanın gələcəyini proqnozlaşdırmaq olar?***

- Rusiya böyük ölkədir və onun gələcəyi rus kapitalizmi ilə bağlıdır. Rusiya imperiyasının, Sovet İttifaqının mərhələləri olub, indi rus kapitalizmi dövrü başlayır.

***- İndiki Rusiya kapitalist dövləti deyilmi?***

- Bəli, kapitalist. Bu, xristian çalarlı kapitalizmdir.

***- Rusiyanın Ukraynadakı müharibədə qalib gəldiyini iddia edirsiniz. Amma siz düşünmürsünüz ki, bu, Rusiya iqtisadiyyatını məhv edir?***

- Daha nə deməliyik. Bütün bunları kim düşündü? Parisdə çörək və yağ çatmır, ərzaq böhranı yaşayan onlardır. Bizdə isə hər şey var, mağazalar məhsullarla doludur. Moskvada hər şey sakitdir, panika yoxdur. Burada hər şey yaxşıdır, biz burada yaşayırıq, siz yox. Belə söz-söhbətləri liberallar və beşinci kolon yayır. Hər gün alış-verişə gedirik, hər şey qaydasındadır.

***- Bəs inflyasiya yoxdur?***

- Əlbəttə, qiymətlər qismən qalxır, amma bu, fəlakətli deyil. Bizim heç bir kəsirimiz yoxdur. Fikir verin, bahalı fransız ətirləri, iki min dollarlıq amerikan qalstukları rəflərdən yoxa çıxdı, yaxşı oldu, yox oldu. Hətta tualet kağızı alan fərdi həyəcanvericilər var. Niyə bilmirəm. Yaxşı, nə İtalyan pendiri var, nə də İsveçrə pendiri, amma Belarus bizi pendirlərlə doldurdu. Orta Asiya bizi pendirlə doldurdu. İndi mağazalarda hətta qara kürü də peyda olub, spirtli içkilərin qiyməti düşür. Əvvəllər erməni konyakının qiyməti 3 min rubl idi, bir gün əvvəl isə 200 rubl pul götürdülər. Əvvəl bütün bunları Qərbə verirdik, indi ixrac dayanıb, nəticədə ixrac məhsulları ölkə daxilində qalır, ona görə də hər şeyi satmaq üçün daha ucuz qiymətə satırlar. Amerikada qazın qiyməti qalxır, biz isə ucuzlaşdırırıq. Təkcə benzinin qiyməti 40 faiz ucuzlaşıb.

***- Rusiyaya kommunizm gəlib ki. Bəs siz rus qazını hara nəql edəcəksiniz?***

- Dünyada Rusiya qazına tələbat çox yüksəkdir. Bizdən qazı Çin və Hindistan istəyir.

***- Tələb var, amma logistik imkanlar yoxdur.***

- Bəli. Biz boru kəmərləri çəkməliyik. İqtisadiyyatda müəyyən çətinliklər təbii ki, olacaq. Çünki bütün bunlar logistikanı qurmaq üçün il yarım vaxt aparacaq. Lakin bu proses Rusiya əhalisinin rifahına Qərbdə olduğu qədər zərər verməyəcək. Artıq onlarda enerji və ərzaq böhranı yaranıb. Bir aydan sonra onların çətinlikləri başlayacaq və bizim isə böyük və zəngin ölkəmiz var, hər şey yaxşı olacaq.

***- Bir sözlə, defolt Rusiya iqtisadiyyatını təhdid etmir?***

- Qətiyyən.

***- Bu, ümidvericidir, çünki Rusiya iqtisadiyyatının çətinlikləri onun tərəfdaşları üçün də qaçılmazdır...***

- Tərəfdaşlarımız bütün prosesləri kifayət qədər sakit izləyirlər. Benzin qıtlığına görə boş qalan Parisdir, amma Rusiyada hər şey qaydasındadır.

***- Sizcə, qlobal böhran nəticəsində yalnız rus oliqarxları böyük zərər çəkib?***

- Bəli. Bu, sevindiyimiz faktdır. Saxtakarlar hər şeyi oğurladılar. Qoy rədd olsunlar.

***- Müharibəyə qayıdaq. Ukrayna tərəfi ilə danışıqların nəticələri barədə nə düşünürsünüz?***

- Ukrayna tərəfinin nümayəndələrinin səlahiyyəti yoxdur, bunlar, dələduzdurlar. Tezliklə Kiyev, Xarkov, Odessa nəzarətə götürüləcək. Onlar Qərbin kömək edəcəyi ümidi ilə zamanla oynayırlar. Və zaman da bizim üçün faydalıdır. Biz barbarcasına hərəkət edə bilmərik. Və niyə onun ərazisində yerləşən şəhərləri vurduq? Axı dağılan hər şeyi Qərb yox, biz bərpa etməli olacağıq. Bu gün qazırıq, sabah bərpa etməliyik. Ona görə də biz körpüləri, yolları qoruyuruq və bu manevr imkanlarını daraldır, başa düşürsən. Biz total müharibədə deyilik.

***- Bəs siz onlarla mülki şəxsin, o cümlədən azyaşlı uşaqların həlak olmasını necə izah edirsiniz?***

- Bu müharibədir. Təəssüf ki, təsadüfi qurbanlar var, bunu istisna etmək olmaz. Ancaq Rusiya tərəfindən mülki əhalinin məhv edilməsi üçün məqsədyönlü hərəkətlər etmək qadağandır. Bu, taktika və ya təbliğat məsələsi deyil. Bəli, qurbanlar var, bununla bağlı heç nə etmək olmaz.

***- Son məlumatlara görə, artıq 3 milyondan çox insan Ukraynanı tərk edib...***

- Bu yekun rəqəm deyil. 15 milyon insan olacaq. Çamadanlar əlində və irəli- Londona, Varşavaya, Praqaya. Səyahətiniz xeyirli olsun. Bu, bizim yox, Avropanın problemidir. Axı onlar 8 il Minsk razılaşmalarına əməl etmədilər, bizim fəaliyyətsiz olacağımızı gözləyirdilər. Burada onlar hesablanır. Bir rus ayısını oyatdılar, onu paylarını alacaqlar. Əgər onlar bizə müdaxilə etsələr, o zaman Helsinkiyə çatacağıq və Baltikyanı ölkələri alacağıq. Beləliklə, bütün ukraynalı qaçqınlar Avropaya göndərilməlidir. Başqa haraya ola bilər? Bəlkə Ermənistana qaçmalıdırlar?

***- Yeri gəlmişkən, boş yerə ironiya edirsiniz. Ermənistana Ukraynadan yox, Rusiyadan 30 minə yaxın qaçqın gəlib. Maraqlıdır, niyə?***

- Bu, dəyişiklikdən qorxan qərbpərəstlərin 5-ci kolonudur. Beləliklə, onlar Avropaya, İsrailə, Ermənistana, Gürcüstana qaçırlar. Qoyun qaçsınlar. Çoxlarının xarici hesabları, investisiyaları var. Onlar sonda Ermənistandan Qərbə keçə biləcəklər, Rusiyadan isə bu mümkün deyil. Ona görə də onlar buradan qaçırlar.

**Müsahibə aldı - Mətanət Nəsibova**
**Tərcümə etdi - Elçin Bayramlı**

# Mədəni irsi dağıdan kimlərdir: 30 il işğala məruz qalan azərbaycanlılar, yoxsa vandal ermənilər?

*Avropa Parlamentinin saxta kağız parçası Azərbaycanın haqq işinə kölgə salmaq iqtidarında deyil*



***Azərbaycanın Ermənistan üzərindəki tarixi Zəfərini həzm edə bilməyən, hər zaman daxillərindəki erməni sevgisini və siyasi riyakarlığını üzə çıxarmağa fürsət axtaran Avropa Parlamenti (AP) və onun alt strukturları Azərbaycana qarşı yalan məlumatları yoxlamağa nəinki səy göstərir, hətta canfəşanlıqla Avropa ictimaiyyətini bu yalanlara inandırmağa çalışırlar, Azərbaycan haqqında həqiqətə uyğun olmayan fikirlər tirajlayırlar.***



Bildiyimiz kimi, Vətən müharibəsindən az sonra AP Azərbaycan və Türkiyəni ittiham edən qərəzli qətnamə qəbul etmişdi. Həmin kağız parçasında Azərbaycanın savaşın getdiyi günlərdə guya Suriyadan olan muzdluların yardımından yararlandığı qeyd edilir, bununla bərabər, müharibədən sonra ordumuz tərəfindən zərərsizləşdirilən erməni diversantlarının qeyd-şərtsiz azad edilməsi tələbi irəli sürülürdü. Amma tarixi faktlar hər şeyi üzə çıxardı. Bu il martın 10-da isə "ənənəsinə" sadiq Avropa Parlamenti "Dağlıq Qarabağda mədəni irsin məhv edilməsi" barədə qəbul etdiyi qətnamə ilə bir daha Azərbaycana qarşı növbəti riyakarlığını, qərəzli mövqeyini nümayiş etdirmiş oldu. Qurumun qəbul etdiyi qətnamədə qeyd edilir ki, guya Azərbaycan Qarabağda "erməni mədəni irsini dağıdır". Hətta Azərbaycanın digər ərazilərində də eyni addımların atıldığı iddia olunur. Avropa Parlamentinin bu qərarına ATƏT-in Polşadakı nümayəndəliyi də münasibət bildirib. Qurum açıqlamasında Avropa Parlamentinin qəbul etdiyi bu qətnaməni dəstəklədiyini və erməni tarixi və mədəni abidələrinin mühafizəsinin ATƏT-in Daimi Şurasının gündəliyinə daxil edildiyini bildirib.

Dünyanın, o cümlədən yeri gəldi, gəlmədi demokratik dəyərlərdən və insan haqlarından söz açan Avropanın gözü qarşısında xarici havadarları tərəfindən silahlandırılan ermənilər Azərbaycan ərazisinin 20 faizini işğal etdilər, dinc əhali amansızcasına qətlə yetirildi, Xocalıda bəşəri tarixin ən qanlı hadisələrindən biri törədildi, bir milyondan çox azərbaycanlı 30 il ərzində qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur oldu. İşğal zamanı həmin ərazilərdə nəinki Azərbaycana məxsus məscidlər, dini, tarixi, mədəni abidələr məhv edildi, hətta iş o yerə çatdı ki, hər şeyi məhv etdikdən sonra təbiətə ziyan vurmağa, ekologiyanı korlamağa əl atdılar. İşğal dövründə Qarabağ və ətrafdakı 7 rayonun ərazisində Azərbaycanın 400-dən artıq tarixi-dini abidəsi məhv edilib. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si ziyarətgahdır. Ermənistanın dağıtdığı qəbiristanlıqların sayı 900-dan çoxdur. İnsanlar o torpaqlara qayıdarkən təkcə qoyub getdikləri evlərini yox, həm də doğmalarının məzarlarını da tapmadılar. Ermənilər müsəlmanları təhqir etmək üçün məscidlərdə donuz, inək saxlayırdılar. Bunu təsdiq edən çoxsaylı foto və videolar da mövcuddur.

Deyilənləri görmək üçün sadəcə işğaldan azad olunmuş ərazilərə səfər etmək kifayətdir. Hansı ki, bütün xarici jurnalistlər və diplomatlar üçün bu şərait yaradılıb və dəfələrlə səfərlər təşkil olunub. Səfər edən əcnəbilər Qarabağın müxtəlif rayonlarında Azərbaycan mədəniyyətinin, tarixi abidələrinin necə dağıdıldığını, Qarabağda ekosid törədildiyini, daşdan başqa heç nəyi qalmayan ərazilərimizdəki mənzərəni görüb təəccüblərini gizlədə bilməyiblər. Əcnəbi qonaqlar, jurnalistlər, eyni zamanda qəsbkarın bu torpaqları başdan-başa minalayaraq "barıt çəlləyinə" çevirməsini də görüblər. Yüzlərlə əcnəbi jurnalist, bloqçular işğaldan azad olunmuş ərazilərimizdə dağıdılan mədəni-dini abidələrdən reportajlar hazırlayıb dünyaya təqdim ediblər. Bu faktları Avropa Parlamentinin bütün üzvləri də görüb və izləyiblər.

Bəs niyə Avropa Parlamenti fakt və sübut olmadığı halda "erməni mədəni irisinin məhv edilməsi"ndən bu qədər narahatdır, özü də Azərbaycan ərazisində, amma erməni vəhşiliyi ortada olaola bununla bağlı susur Məgər görmürlərmi ki, vaxtilə böyük şəhərlər olmuş Ağdamda, Füzulidə, Cəbrayılda, ümumiyyətlə, canlı aləmin yaşaması üçün hər şey yox edilib? Azərbaycanın işğal olunmuş ərazilərində insanlıq və mülkiyyət əleyhinə olan cinayətlərə, mədəni irsin dağıdılmasına görə, Ermənistan məsuliyyət daşıyır. Digər məsuliyyət isə əlbəttə, bu vandalizmi örtbasdır edən, həqiqəti olduğu kimi deməyən, dünya ictimaiyyətini aldatmağa çalışan riyakar beynəlxalq təşkilatların, ilk növbədə, Avropa Parlamentinin üzərinə düşür. Görünür, Avropa Parlamentinin rəhbərliyi Ermənistanın xalqımıza məxsus abidələri dağıtmasının "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası , "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyasının tələblərinə zidd olduğunu hələ də dərk etmir. Guya Avopa Parlamenti bütün bunlardan xəbərsizdir. Bunları görməmək və eşitməməyin bir adı var: siyasi korluq və riyakarlıq.



Avropa Parlamenti də daxil bütün beynəlxalq qurumlara, ölkələrə Azərbaycan dövlətinin və xalqının tolerant və multikultural dəyərlərə daim sadiqlik nümayiş etdirdiyi, respublikamızda dilindən, dinindən asılı olmayaraq bütün xalqlara, mədəniyyət və sivilizasiyalara məxsus hər bir abidənin həssaslıqla qorunduğu, həmin abidələrin zəngin tariximizin bir hissəsi kimi gələcək nəsillərə çatdırılmasına böyük diqqət göstərildiyi yaxşı məlumdur. Ermənilərin bu vəhşi əməllərinə baxmayaraq, Azərbaycan heç zaman din davası gerçəkləşdirməyib. Ölkəmizin ərazisində bütün dinlərə məxsus olan abidələr dövlət səviyyəsində qorunub, məscidlərlə yanaşı, sineqoqlar tikilib, yeni kilsələr inşa edilib. Hətta Bakı şəhərinin mərkəzində erməni kilsəsi dövlət tərəfindən qorunan abidələr siyahısına salınıb. Düşmən isə, əksinə, İslam mədəniyyətinin incisi olan məbədləri dağıdıb, regionda dini müharibə məsələsini qızışdırmağa və bu münaqişəni xristian-müsəlman qarşıdurması kimi təqdim etməyə cəhd göstərib.

Bəs belə olan təqdirdə Avropa Palamentini bu cür həqiqətdən uzaq, haqsız-ədalətsiz qətnamə qəbul etməsinə vadar edən nədir? Suala sualla cavab vermək lazım gəlir. Belə ki, son 30 il ərzində 20 faizdən çox ərazimiz işğal altında saxlanılanda dünya birliyinin bu ədalətsizliyə susması məsələyə ikili standartlarla yanaşması ilə bağlı idi. İşğal dövründə Azərbaycanın şəhər və kəndlərinin yer üzündən silinməsi, maddi-mədəniyyət abidələrinin dağıdılması, təhqir edilməsi, təbii sərvətlərimizin talan olunması beynəlxalq ictimaiyyəti, habelə bu münaqişənin nizamlanmasına məsul dövlətləri niyə narahat etmirdi?

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə bütün beynəlxalq təşkilatları işğaldan azad olunan ərazilərə gəlməyə, Qarabağ və Şərqi Zəngəzurda faktaraşdırma missiyalarında iştirak etməyə səsləyib. Prezident İlham Əliyev xarici ölkələrə səfərləri zamanı çıxışlarında, jurnalistlərə müsahibələrində 30 illik işğal ərzində Qarabağda Azərbaycanın bütün mədəniyyəti, tarixi və dini irsinin məhv edildiyini, çoxsayda dinc sakinlərimizin qətlə yetirildiyini, indi üzə çıxan kütləvi məzarlıqların isə erməni faşizminin dəhşətli mənzərəsinin göstəricisi olduğunu vurğulayıb. Təəssüflər olsun ki, sözügedən bu qurumlar Azərbaycanın bütün müraciətlərini qulaq ardına vurub, öz ənənəsinə sadiq qalaraq ölkəmizə qarşı ikili standartlar tətbiq edib. Görəsən niyə? Azərbaycan xalqının bütün mədəni isrsini məhv edən Ermənistana qarşı heç bir tədbir görməyən qurumlar indi ermənilərin qondarma iddialarına niyə belə operativ reaksiya verir? Əslində Ermənistan əleyhinə qəbul olunmalı olan bu sənədlər, niyə Azərbaycana qarşı qəbul olunur?

İndi isə Avropa Parlamentinin Azərbaycanın Qarabağda erməni mədəni irsinin "məhv edilməsi" ilə bağlı müzakirələr aparması heyrət doğurur. Yalan, böhtan və riyaya sadiqliyin bu səviyyədə nümayişi adamı dəhşətə gətirir. İşğalçıya "göz yaşı" axıtması, qəsbkara qahmar çıxması, onu dəstəkləməsi, onun barbar, vandal əməllərini "görməməsi", ən nəhayət, Ermənistanın 30 il ərzində Azərbaycana qarşı faşizm siyasəti yürütməsi bu qurumun fəaliyyət prinsipləri barədə aydın təsəvvür yaradır. Bunun səbəbi əsasən Azərbaycana qarşı olan ikili standartlar, irqçi xarakterli yanaşmalar və islamofobiya ilə bağlı idi.

İşğala son qoyulduqdan dərhal sonra Azərbaycan həmin ərazilərində erməni vandallarından fərqli olaraq, abadlıq-quruculuq işləri ilə məşğuldur. Bu çərçivədə dini, mədəni abidələrin, o cümlədən xristian irsinə mənsub abidələrin də bərpası istiqamətində fəal iş aparılır. Həmin ərazilərə yenidən həyat qayıdır, 30 il dünyanın gözü qarşısında hüquqları tapdanmış bir milyondan çox məcburi köçkünün hüquqları bərpa edilir. Sözsüz ki, hər hansı dövlət və yaxud təşkilat tərəfindən Azərbaycan əleyhinə səsləndirilən hər hansısa bəyanat, qəbul edilmiş hər hansısa qətnamə dövlətimizin bu istiqamətdə tutduğu düzgün yolu dəyişdirə bilməz. Haqq da, hüquq da Azərbaycanın yanındadır. Bu reallığı isə Avropa Parlamentinin vaxtaşırı ölkəmizə qarşı qəbul etdiyi heç bir saxta iddialı kağız-kuğuz parçasının dəyişdirməyə və Azərbaycana təsir göstərməyə gücü çatmaz.

Ümid edirik ki, Avropa Parlamenti erməni tərəfinin böhtan xarakterli iddiaları əsasında hazırlanan bu qətnamədən imtina edəcək, Qarabağ və ətraf rayonlarda erməni faşizmi tərəfindən viran edilən saysız-hesabsız mədəniyyət abidələrini, dini-tarixi memarlıq əsərlərini "görəcək", bu tarixi səhvini erməni vandalizmini ifşa edən qətnamə və bəyanatlarla ən qısa zamanda düzəldəcəkdir

**Yaqut Ağaşahqızı**

# Prezidentlə görüşən güləşçilər

## TƏƏSSÜRATLARINI SİA-YA DANIŞDILAR



***Martın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 23 yaşadək idmançıların Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul edib. Cənab Prezident Güləş Federasiyasını və gənc idmançılarımızı təbrik edərək, gələcək fəaliyyətlərində uğurlar arzulayıb. SİA olaraq qaliblərimizin və qurum rəsmilərinin təəssüratlarını öyrəndik.***



**Bakı şəhər Gənclər və İdman İdarəsinin rəisi Raqif Abbasov:** ”Azərbaycan güləşçiləri Bolqarıstanda keçirilən 23 yaşa qədər Avropa Çempionatında uğurla çıxış edib. Yarışda Yunan-Roma güləşi, sərbəst və qadın güləşi üzrə idmançılarımız Azərbaycana qalib bir vəziyyətdə geri dönüb. Nəticə olaraq komanda hesabında Azərbaycan güləş milli yığması birinci yerə çıxıb. Bu böyük bir tarixi nəticədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu gün Güləş Federasiyasının yığma komandasını və Avropa çempionatının qaliblərini, məşqçilər və Federassiya rəsmiləri ilə görüşüb. Cənab Prezident yeni Gənclər və İdman Nazirini təyin edərkən tapşırıqlar əsasında yenilənmə işinin aparılması barədə tapşırığ verib və bu proses bu gün də davam etdirilir. Eyni zamanda cənab Prezident Güləş Federasiyasında son dəyişikliklıyə qədər olan dövrə toxunmuş və bəzi məqamların narahatçılıq doğurduğunu bildirib. Görüş zamanı cənab Prezident federasiya rəhbərlərinə, idman mütəxəssislərinə, Gənclər və İdman Nazirliyinə bildirib ki, bütün idmançılara qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün şərait yaradılmalıdır. Bunun nəticəsində yüksək səviyyədə uğurların gözlənilməsi zəruridir. Bu iki amil bizim uğurumuzun əsasını təşkil edir. Cənab Prezident həm də müharibədə böyük məharətlə iştirak etmiş Azərbaycanın müzəffər ordusu haqqında və bu orduda məhz gənclərin xidmət etməsi barədə məlumat verdi. Bununla da cənab Prezident bütün dünyaya bir mesaj verdi ki, Azərbaycanın güclü ordusu və sağlam gəncliyi var”.

**Azərbaycan Güləş Federasiyasının mətbuat katibi Sərxan Musalı:** ”Azərbaycan güləşi hər zaman nəticə baxımından Azərbaycan idmanının flaqmanı rolunu oynayıb. İdman sahəsində yüksək nəticələri güləş üzrə almışıq. Sevindirici haldır ki, 2022-ci ilə güləşçilərimiz inamla başlayıb. Artıq bir neçə beynəlxalq turniri uğurla başa vuraraq, Avropa çempionatında iştirak etdik. 23 yaşadək Avropa çempionatında tarixi



nəticə qazandıq. Bu yarışda Azərbaycan güləşində rekord nəticələr əldə etdik. Bunun nəticəsi olaraq cənab Prezident İlham Əliyevin idmançılarımızı qəbul etməsi, təbii ki, bizim üçün böyük qürur hissidir. Əlbəttə, bu görüş bizim gələcəkdəki yarışlarda uğur qazanmağımız üçün böyük motivasiya oldu. Qarşıda bizi böyüklər arasında Avropa çempionatı gözləyir. Bu yarışlara da ikiqat əzimlə çalışıb əlimizdən gələni edəcəyik ki, Prezidentin bizə olan etimadını doğruldaq, Azərbaycan xalqını sevindirək”.

**Yunan-roma güləşi üzrə idmançı Nihad Məmmədli:** ”Bu gün cənab Prezident bizi əldə etdiyimiz nəticəyə görə şəxsən özü təbrik etdi. Bu bizə əlavə stimul ve həvəs verdi. Bunun üçün mən Prezidentimizə minnətdarlığımı bildi-



rirəm. Biz də çalışacıyıq ki, bundan sonrakı zamanlarda da bayrağımızı daim uca tutaq, himnimizi digər ölkələrdə səsləndirək”.



**Sərbəst güləş üzrə idmançı Zirəddin Bayramov:** ”Mən çox sevinirəm ki, bizim İlham Əliyev kimi Prezidentimiz var. Onun güləş idman növünə və güləşçilərə gösdərdiyi qayğı və dəyər danılmazdır. Bu gün bizimlə görüşməsi də bunun bariz nümunəsidir. Həmçinin bu görüş bizi ruhlandırdı, rəqiblərimizə qarşı gücümüzü daha da artırdı. Federasiyanın rəhbəri Namiq Əliyev və məşqçilər korpusu da bizə dəstəyini və köməyini əsirgəmir. Mən öz adımdan Prezidentimizə və fedarasiya rəhbərliyinə dərin təşəkkürümü bildirirəm”.



**Qadın güləşi üzrə idmançı Jalə Əliyev:** ”Cənab Prezident İlham Əliyev bu gün bizlərlə görüşdü. Bolqarıstanda keçirilən Avropa çempionatındakı qələbəmizi, məşqçilərimizi və Güləş Federasiyasını təbrik edərək uğurlar arzuladı və bildirdi ki, bu nəticə həm medalların sayına, həm də əyarına görə Avropa tarixində Azərbaycan güləşi üzrə rekord göstəricidir. Komandamız 16 medal qazanıb. Bunlardan 7 qızıl, 2 gümüş, 7 bürünc medaldır. Komandamız 1-ci yerə layiq görülüb. Prezident bildirdi ki, Avropa birincisi olmaq böyük nailiyyətdir və dövlət himnimiz 7 dəfə səsləndirilib. İlham Əliyev qeyd etdi ki, siz idmançılar və sizdən sonra gələn nəsillər həmişə müzəffər ölkəni təmsil edəcəksiniz. Çünki bizim qələbəmiz əbədidir. Biz Qarabağı düşməndən azad edən və o torpaqlarda həyat quran xalqıq. Cənab Prezidentin dediyi kimi bizim qələbəmiz əbədidir. Bu sürprizlər bizə daha çox stimul verir. Cənab Prezidentə idmana və idmançılara göstərdiyi diqqətə, qayğı və məhəbbətə görə dərin təşəkkürlərimi bildirirəm”.

***Banuçiçək Hüseynli***

SORĞU

# NOVRUZ əcdadlarımızın bizə töhfəsi, onlardan qalmış mirasdır!

*Azərbaycan xalqı çoxəsrlik tarixə malikdir. Bu tarixdə milli soy-kökümüzdən qaynaqlanaraq fərdi xüsusiyyətimizə çevrilən elə adət-ənənələrimiz vardır ki, onlar kimliyimizi ortaya qoyan, sübut edən amillərdir. Və əsrlərdir, yaşadılaraq bu günümüzədək gəlib çıxan adət-ənənələrimiz müasir dövrümüzdə xalqımızın tarixi kökünü bir daha açıqlayır, bu millətin tarix qədər yaşı olduğunu təsdiqləyir. 70 il sovet imperiyasının müstəmləkəsində olan bir xalq öz tarixini, milli adətlərini, mentalitetini çətinliklərlə üzləşə-üzləşə saxlaya bilmişdirsə, bu onun göstəricisidir ki, həmişə soy-kökünə sadiq olan azərbaycanlılar onu qorumağı bacarmışlar.*



Hələ imperiyanın 15 müttəfiqindən biri olan Azərbaycanı xüsusi məngənədə saxladığı, 70 ilin hər saatında, anında xalqımıza milli bayramlarını, adət-ənənələrini yasaq etdirməyə çalışdıqları, bunlardan bəhs edənlərin repressiyası kimi geniş mövzulara toxunsaq, deməyə haqqımız daha çox olar ki, Azərbaycan xalqı öz tarixi keçmişini, sözün əsl mənasında, qəhrəmancasına qorumuşdur. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra milli dəyərlərimizə verilən qiymət onu millətimiz üçün daha əziz etmiş, illərlə gizli şəraitdə qoruyub saxladığımız bayramların ölkə səviyyəsində, elliklə qeyd olunmasına zəmin yaratmışdır. Ulu öndərimiz deyirdi: "Elə vaxtlar, zamanlar olubdur ki, bu bayramı xalqımızın əlindən almaq istəyiblər, bu bayramı keçirməyə mane olmaq istəyiblər. XX əsrdə biz bu dövrü yaşamışıq. Ancaq Novruz bayramının o qədər dərin kökləri var, Azərbaycan xalqının, millətimizin qəlbində o qədər yerləşib ki, heç bir qüvvə, heç bir hakimiyyət, heç bir siyasi sistem bu bayramı Azərbaycan xalqının əlindən ala bilməyibdir".



Artıq neçə illərdir ki, Novruz bayramı çox çətinliklə əldə etdiyimiz müstəqillik ölkəmizdə təmtəraqlı şəkildə qarşılanır. Respublikamızın hər yeri - küçə və meydanları, parkları qədim milli bayramımız üçün bəzədilir. Hər kəs ən sevimli bayramı olan Novruzu ürəyincə qeyd edir. Oxuyan, oynayan, yallı gedən, milli oyunlarımızı, mərasimlərimizi, adətlərimizi nümayiş etdirən hər kəslə yaşanır, yaşadılır qədim bayramımız Novruz. Yaşadıla-yaşadıla dünəndən bu günə, bu gündən sabaha - yeni nəsillərə ərməğan edilir.





## Novruz barədə nə bilirik

Novruz xalqımızın böyük mərasimlərindən biridir. Bu mərasim hər il mart ayının 20-21-də keçirilir. Şərq xalqlarının erkən əkinçilik, məhsul bolluğu etiqadları ilə bağlı bu mərasim hələ qədim zamanlardan el arasında böyük bayram kimi qeyd edilib. Xalq bu bayrama hazırlığa Novruza 40 gün qalmışdan başlayardı. Əvvəl çərşənbəyə qədərki 10 gündə hər yerdə təmizlik işləri aparılar, sayaçılar həyətbəhəyət gəzib dölün başlanması ərəfəsində sayadan pay alıb, pay verərdilər.Novruzaqədərki birinci, ikinci, üçüncü və dördüncü çərşənbələrin də özünəməxsus şənliyi, ayini, etiqadı olardı. Axır çərşənbədə isə Novruz şənlikləri daha böyük təntənə ilə qeyd edilər, birindən rəngarəng nəğmələr oxunar, ayinlər icra edilər, tamaşalar, oyunlar göstərilərdi. Bu çərşənbələrin də öz adı, adəti var. Birinci çərşənbə "Əzəl çərşənbə"dir. Buna "Yalançı çərşənbə" də deyərlər. Həmin çərşənbədə yandırılan tonqalın külünü göyə sovurub ucadan söyləyərlər: "Kiçik çillənin gözünə kül ələyirik!" İkinci çərşənbə "Muştuluqçu (müjdə verən) çərşənbə"dir. Bu çərşənbədə hamı bir-birinə muştuluq verər ki, çillə tamam-kamal sovuşub, gedib. Sonra "Gül" çərşənbə gəlir. Bu çərşənbədə təmizlik eləmək, ev-eşiyi, paltar-palazı çırpıb, silib "gülə döndərmək" qaydadı. Qalır dördüncü - bayramdan qabaqkı çərşənbə. Həmin çərşənbə "İlaxır çərşənbə" sayılır. Ulularımız həftənin günlərini uğuruna, sayasına görə sınaqdan çıxarıb bir parasını ağır, bir parasını da yüngül sayıblar. Həmin hesabla ən ağır gün çərşənbə axşamı, ən yüngül, sayalı gün cümə axşamı ilə cümədir. Ağır olduğundan çərşənbə axşamına baba-nənələrimiz "duz günü" deyərdilər. Həmin gün ev binəsi qoymaq, əkinə-biçinə başlamaq, toy-düyün eləmək məsləhət bilinməyib. İşin binəsini cümədə qoymaq uğurlu sayılıb.

Çərşənbə axşamı ağır gün sayıldığından ilin axırıncı həftəsinin həmin günündə tonqal qalayıb, odun üstündən atıla-atıla cəmi ağrı-acıları tökər, yeddi cür şirin nemət dadıb, nəhs gündən qurtular, sonra da xoş ovqatla o biri günlərə qədəm basıb Novruzu qarşılayarlar. Deyərlər ki, nə qədər ağrı-acımız, qada-balamız varsa, hamısını tökdük axır çərşənbə tonqalının üstünə.Novruz başdan-başa ruh yüksəkliyi, əmək coşqunluğu, torpağa, insana məhəbbət bayramıdır. Novruz yazın gəlişinə, torpağı yeni əkinə, yeni məhsula, bolluğa, firavan həyata çağırış bayramıdır.Daha qədimlərdə təbiətin oyanmasına xoşbəxtlik və səadət rəmzi kimi baxan insanlar yazın gəlişi, havaların istiləşməsi, yeni əkinçilik mövsümünün başlanması, təbiətin yenidən canlanması, yaşıllaşması ilə bağlı müxtəlif nəğmələr, oyunlar, mərasimlər yaratmışlar. Bütün bu ilkin, ibtidai sənət nümunələri isə sonralar Novruz ətrafında cəmləşmişdir.Novruz mərasimini bəziləri yanlış olaraq Zərdüştlüklə, digərləri isə İslam dini ilə bağlamağa cəhd göstərmişlər. Lakin bütün cidd-cəhdlərə baxmayaraq, Novruz mərasimlərində dinlərdən qabaqkı təsəvvürlər tam aydınlığı ilə əks olunmaqdadır. Bu bayramın qədim insanların bolluq, bərəkət, əmək, əkinçilik və məişət həyatı ilə bağlı yarandığını əks etdirən solmaz şəfəqlər zaman keçdikcə daha qüdrətlə şöləlenməkdədir.

## Novruzu nə vaxtdan qeyd ediblər

Qədim bir türk əsatirində bu suala cavab tapmaq olar: Oğuz oğlu zağada yaşayanda qışdan yaman qorxardı. Ona görə də ilin üç fəslində qışa tədarük görər, dünyanın naz-nemətini zağaya yığıb gətirərdi. Bir il qış uzun çəkdi, onun azuqəsi qurtardı. Çarəsiz qalan Oğuz oğlu Böyük çillənin otuzuncu günü zağadan bayıra çıxdı ki, yeməyə bir şey tapıb gətirsin. Nə qədər gəzdi, dolandı, heç nə tapmadı. Saqqalı buz bağladı, əli-ayağı dondu. Kor-peşman evə qayıdanda yolda bir qurd balasına rast gəldi.

- Oğuz oğlu, bu qarda-boranda haradan gəlirsən?

Oğuz oğlu başına gələn əhvalatı danışdı. İlin aylarından gileyləndi. Dedi ki, elə ay var yaxşı dolanırıq, elə ay var acından qırılırıq. Ayları təriflədi, ayları yamanladı.

Qurd balası dedi:

- Ey Oğuz oğlu, qarşıdakı yolayrıcında səni bir sürü qoyun, bir qucaq sünbül, bir cəhrə, bir də əl dəyirmanı gözləyir. Onları alıb zağana apararsan. Qoyunu kəsib ətini yeyər, yunundan cəhrədə ip əyirər, özünə paltar toxuyarsan, dərisini əyninə geyinər, sünbülün dənini də əl dəyirmanında çəkər, undan çörək bişirərsən, yaza çıxarsan. Ancaq sənə verdiyim əmanətlərdən gərək muğayat olasan. Sünbülü və qoyunu özün artırarsan. Quzuları əlinin içində saxlayıb böyüdərsən. Sünbülün dənini yerə səpib, onu alnının təri ilə suvararsan. Dediklərimə əməl eləyə bilməsən, yaşamaq sənin üçün çətin olacaq.Oğuz oğlu yolayrıcına gəldi. Qurd balasının dediklərini götürüb zağaya gətirdi. Qışı kefi kök dolandı. Yazda sürünü dağlara yaydı, sünbülün dənini torpağa səpdi, gecə-gündüz sürülərin, taxıl zəmisinin qulluğunda dayandı. Oğuz oğluna bir bolluq üz verdi ki, gəl görəsən.Deyirlər, oğuzlar elə o vaxtdan həmin günü ən əziz bayramlardan hesab eləmişlər. Həyatında yenilik başlandığından, o günə yeni gün adını verən Oğuz oğlu onu hər yaz bayram etmişdir. O gündən Novruz xalq arasında firavan yaşayışa, bolluğa, bərəkətə, yaradıcı əməyə çağırış rəmzinə çevrilmişdir. Elə o gündən xalq bayrama 40 gün qalmış hazırlıq, təmizlik işlərinə başlayıb, Novruzqabağı nəğmələrini yaradıb. Bayramın bütün etnoqrafik cizgiləri Novruz nəğmələrində öz əksini tapıb. "Səməni", "A yel baba, yel baba", "İldə göyərdərəm səni", "Qodu-qodu", "Yağış gəlir" nəğmələrində Novruzun bütün detalları əks olunur. Xalq özünün həyat, sağlamlıq, təmizlik, əmək vərdişləri ilə bağlı bir çox ayin, etiqad və mərasimlərini Novruzla bağlayıb, beləliklə də, onların el içərisində geniş yayılmasına və kütləviləşməsinə nail olub. Novruz başdan-başa ruh yüksəkliyi, əmək coşqunluğu, torpağa, insana məhəbbət bayramıdır. Bu bayramda hamı özünə təzə paltar alar, təzə paltar tikdirər, qızgəlinlər təzə çəkmə, al-əlvan don geyinərlər.Novruz adətlərində ulu babalarımızın ən müdrik dünyagörüşü, humanist baxışları, həlim, qayğıkeş təbiəti özünü göstərir. Bu nümunələrdə təmizliyin əhəmiyyəti, onun təbliği, yaxşılıq, xeyirxahlıq, Vətəni sevmək kimi yüksək mənəvi-əxlaqi keyfiyyətlər əks olunub.

### Novruz müasir dövrümüzdə

Novruz - bu, böyük bir tarixdir. Yaşanan, yaşadılan və yaşadılacaq bir tarix. Ümummilli lider Heydər Əliyevin dediyi kimi: "Necə ki, ötən nəsillər bu bayramı adətləri ilə yaşadıb, bizə təhvil vermişlər, bizlərin - müasir dövrün insanlarının da vəzifəsi ondan ibarətdir ki, bu adətləri olduğu kimi gələcək nəsillərə çatdıraq. Novruz bayramı bizim bütün bayramlarımızdan əzizdir. Bu bayram çox qədim tarixə malikdir və əcdadlarımızın bizə töhfəsi, onlardan qalmış mirasdır. Novruz bayramı heç bir tarixi hadisə, yaxud heç bir şəxsiyyətin adı ilə, onun fəaliyyəti ilə bağlı deyildir. Bu bayram təbiətin qanunları ilə, kainatın qanunları ilə əlaqədar olan bir bayramdır. Gündüz ilə gecənin bərabərləşməsi günü, baharın ilk günü Novruz bayramıdır. Bunlara görə Novruz bayramı bir çox başqa bayramlardan fərqlənir və bu, bizim, məhz Azərbaycan xalqının bayramıdır. Qədim zamanlardan bəri və bu gün də bu bayramı ən çox sevən, ən uca tutan Azərbaycan xalqıdır".Xalqımızın qədim milli bayramı olan Novruzun müasir dövrümüzdə bütün adət-ənənələri ilə yadda qalması, davam etdirilməsi bu bayramın azərbaycanlılar üçün tarixi bayram olduğunu sübut edir. Qədim tarixi mənbələrdən, Novruzla bağlı tədqiqatçı alimlərin əsərlərindən oxuduğumuz yazılarda bu bayramın qədim dövrlərdə necə başlandığı, davam etdirildiyi, hansı adətləri özündə əks etdirdiyi ilə tanış olduqca və bütün bunlara müasir dövrümüzdə də şahid olan bizlərdə belə bir təəssürat yaranır ki, xalqımız öz tarixi keçmişinə, adətənənələrinə, mentalitetinə həmişə hörmətlə yanaşmış, ona sadiq qalmış və yüksək dəyər vermişdir. Bu gün də Novruza qədər təbiətin dörd ünsürü - su, od, külək və torpaqla bağlı çərşənbələrin qeyd olunmasını, bütün evlərdə, bağbağatlarda "külə-külə" adəti ilə təmizlik işlərinin aparılmasını, Novruza 15 gün qalmış səməni cücərdilməsini, ilin axır çərşənbəsində tonqal çatıb, el-elatın həmin tonqalın başına yığışaraq deyib-gülməsini və 20-21 martda Novruzun - yeni günün həyatımıza daxil olmasının təntənəli şəkildə qeyd edilməsini, əsrlər öncəki adət-ənənələrimizin olduğu kimi yaşadılıb bu günə qədər çatdırılmasını böyük mənəvi sərvətimiz kimi dəyərləndirmək olar. Dövlətimizin başçısı cənab İlham Əliyevin dediyi kimi: "Azərbaycan torpağında Novruz bayramı daim yad təsirlərdən uzaq tutulmuş və heç bir qüvvəyə onu insanlarımızın qəlbindən çıxarmaq imkanı verilməmişdir. Biz onun böyük mənəvi gücü sayəsində keçmişimizin mürəkkəb dövrlərində belə, nikbinliyimizi və gələcəyə inamımızı qoruyub saxlamağı bacarmışıq".

Qədəmlərin mübarək, ulu Novruz! Qoy bu Novruz həyatımıza, elimizə-obamıza xoşbəxtlik, səadət, hər bir ailəyə sevinc dolu günlər, bol ruzi, ölkəmizə sülh, əmin-amanlıq, davamlı inkişaf gətirsin.

***Mətanət Məmmədova***

# "Şuşa İli" - Azərbaycanın İncisi olan Şuşa şəhərinin müasir intibahının gerçəkləşəcəyi il olacaq




***"Bildiyimiz kimi, cənab Prezident İlham Əliyevin Sərəncamı ilə 2022-ci il "Şuşa ili" kimi təsdiq olunub. Prezidentimizin Şuşa şəhərini Azərbaycanın mədəniyyət paytaxtı elan etməsi, burada "Xarıbülbül" festivalının, Vaqif Poeziya Günlərinin bərpası hər birimizdə xoş hisslər yaratdı". Bu sözləri SİA-ya açıqlamasında YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib.***

Onun sözlərinə görə, zəfər günündən altı ay sonra Cıdır düzündən yüksələn muğam, musiqi sədaları bütün dünyaya yayıldı: "Bu, kimin kim olduğunu, kimin hansı mədəniyyətə sahib olduğunu, Qarabağın əsl sahiblərinin kim olduğunu əyani surətdə nümayiş etdirdi. Pənahəli xanın təxminən 270 il əvvəl təməlini qoyduğu Şuşada işğal dövrünə qədər həmişə azərbaycanlılar yaşayıblar, bu şəhərin bütün aurasına, daş-divarına başdan-başa Azərbaycan ruhu hopub. Prezident İlham Əliyevin Şuşada "Xarıbülbül" festivalında xüsusi vurğuladığı "Ermənilər nə qədər çalışsalar da, Şuşadan Azərbaycan ruhunu silə bilmədilər. Bəli, mənfur düşmən tərəfindən binalar dağıdıldı, məscidlərimiz dağıdıldı, tarixi abidələrimiz dağıdıldı. Ancaq Şuşa Azərbaycan ruhunu qoruya bildi. Şuşa 28 il yarım əsarətdə idi, ancaq əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, milli ruhunu qorudu, Azərbaycan ruhunu qorudu" ifadəsində tarixi həqiqət özünü əks etdirir.

Şuşaya dəfələrlə səfər edən Prezident İlham Əliyevin dediyi kimi, hər dəfə buraya gələndə adam buradan ayrılmaq istəmir: "Şuşanın özünəməxsus aurası var. Mən dünyada Şuşaya bənzər şəhər görməmişəm, bəlkə də yoxdur". Xalqımız 30 il Qarabağ, Şuşa həsrəti ilə yaşayıb, amma bu gözəl diyara, bənzərsiz şəhərə qayıtmaq inamını heç vaxt itirməyib.

Ulu öndər Heydər Əliyev illər öncə sarsılmaz inamla söylədiyi "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu - biz onlarsız yaşaya bilmərik" fikirləri 23 il sonra reallığa çevrildi, Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. Biz artıq Şuşadayıq, biz Laçına, Ağdama, Füzuliyə, Cəbrayıla, Zəngilana, Qubadlıya, Kəlbəcərə qovuşmuşuq. Üçrəngli bayrağımızın Qarabağda əzəmətlə dalğalandığı günü görmək, müqəddəs Qarabağ torpağını öpmək həqiqətən böyük xoşbəxtlikdir ki, bizə nəsib oldu.

Biz canını gözəl Qarabağımızın düşmən tapdağından azad olunması naminə fəda edən qəhrəman Vətən övladlarına, sağlamlığını itirən qazilərə, rəşadətli Ordumuza, Azərbaycan əsgərinə borcluyuq. Xalq öz Prezidentinin, Ordu öz Ali Baş Komandanının ətrafında bir yumruq kimi birləşdi və bu, Qələbəni şərtləndirən əsas amil oldu. Bu arzunu gerçəkliyə çevirən hər kəsin qarşısında baş əyirik! Həlak olmuş qəhrəmanların xatirəsi əbədi yaşayacaq!

YAP Yasamal rayon təşkilatı olaraq Şuşa ili çərçivəsində təşkilatımızda "Şuşa ili" ilə əlaqədar müxtəlif tədbirlərin, inşa müsabiqələrinin, yarışlarının və səfərlərin keçiriləcəyini məmnunluqla bildirmək istəyirəm.

Heç şübhəmiz yoxdur ki, "Şuşa İli" çərçivəsində Şuşamızın və ümumi Qarabağımızın möhtəşəm şəkildə dəyişiləcəyini görəcəyik. Bu torpaqlara yenidən həyat qaytarılacaq, dağıdılmış şəhərlərə ruh və can veriləcək".

***Səbinə***

# Şagirdlərin qiymətləndirilməsi necə aparılmalıdır?



***"Şagirdlərin qiymətləndirilməsi məktəblərdə qiymətləndirmə konsepsiyası əsasında həyata keçirilir". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti İlqar Orucov bildirib. Onun sözlərinə görə, bütövlükdə qiymətləndirmə xeyli çətin bir prosesdir: "Müəllimdən xüsusi bacarıqlar tələb edir.***

Hansı ki, şagirdlərin təlim nailiyyətləri, məktəbdaxili qiymətləndirilməsinin əsas məqsədi burada sinif və məktəb səviyyəsində onların bilik və bacarıqlarının mövcud vəziyyətini öyrənmək və təlim-tərbiyə prosesini yaxşılaşdırmaq məqsədi daşıyır. Eyni zamanda bu qiymətləndirilmə inkişafa təkan verən bir proses olmalıdır. Çox vacibdir ki, təlim-tərbiyə prosesindən söhbət gedirsə, burada həm şagirdin proqram məzmununu mənimsəməyi ilə bağlı qiymətləndirilməsi aparılmasın, həm də şagirdin davranışının qiymətləndirilməsi nəzərə alınsın. Yəni bu qiymətləndirmə əslində özündə bir neçə aspektdən yanaşaraq, ümumi qiymətləndirməni özündə ehtiva edir. Burada şagirdin nailiyyətinin izlənilməsi dedikdə burada ancaq şagirdin irəliləyişi deyil, geriləməsi də nəzərdə tutulur. Şagirdin təlim nəticələrinin qiymətləndirilməsi və burada kurikulumun qiymətləndirilməsi də əsas şərtlərdəndir. Ümumi məktəbdaxili qiymətləndirmə bunların əsasında həyata keçirilir.

Təbii ki, beynəlxalq qiymətləndirmə sistemi daha fərqlidir. Azərbaycanda qiymətləndirmə prosesinin beynəlxalq standartlara yaxınlaşdırılması istiqamətində də müvafiq işlər aparılır. Bu qiymətləndirmədə Azərbaycan xeyli aşağı nəticələr göstərib. Son illərdə isə bu istiqamətlərdə də irəliyə doğru işlər görülmüşdür. Bu baxımdan düşünürəm ki, qiymətləndirmə burada yalnız dərs qiymətləndirməsinin aparılmasından ibarət olmamalıdır. Eyni zamanda roqram məzmunu üzrə qiymətləndirmə burada çox vacib əhəmiyyət kəsb edir. Amma əsas tərəf olsa belə, yalnız qiymətləndirmənin dərs üzrə aparılması ilə də yekun qərar verilə bilməz. Əlbəttə ki, şagirdin davranışı, həm məzmunu bilməsi, məzmunun ölçülməsi və məktəbdə isə məktəbdaxili qiymətləndirməsi aparılmalıdır. Burada kiçik və böyük summativ qiymətləndirmələr nəzərdə tutulur. Kiçik summativ qiymətləndirməni müəllim, böyük summativ qiymətləndirməni isə məktəb rəhbərliyi həyata keçirir. Bütün bu qiymətləndirmələrin nəticəsi ilin sonunda şagirdin qiymətləndirilməsini tam olaraq ortaya qoyur".

***S. Hüseynli***

**EKSPERT AÇIQLADI**



# Qanunvericilik bazasının möhkəmlənməsi dövlətin inkişafına yeni imkanlar yaradır

***2020-ci il 9 fevral parlament seçkiləri Azərbaycanın hüquqi,demokratik dövlət quruculuğu tarixinə yeni bir səhifə yazdı. Bu tarix, eyni zamanda, yeni, təkmil, müasir parlamentin formalaşmasının başlanğıcı oldu. Parlament seçkilərinin keçirilməsi ölkəmizdə həyata keçirilən islahatlar strategiyasının reallaşması ilə bilavasitə bağlı idi. Martın 10-da altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirildi.***

Həmin tarixdən iki il ötür. Yeni fəaliyyətə başlayan parlament bütün sahələrin inkişafına xidmət edən yeni, təkmil qanunların qəbulu ilə ölkəmizin davamlı inkişafına töhfəsini verməkdədir. Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında Prezident İlham Əliyevin proqram xarakterli çıxışında ölkədə başlanmış yeni islahatlar kursunun davam etdiriləcəyi ilə bağlı verdiyi anons öz təsdiqini tapıb. ”Hesab edirəm ki, yeni tərkibdə formalaşmış Milli Məclis islahatlara yeni təkan verəcəkdir” - deyə bildirən Cənab Prezident deputatlar qarşısında böyük vəzifələrin durduğunu bildirmişdi. Bunun ilk növbədə, qanunvericilik sahəsində olduğunu qeyd edərək parlamentin əsas işini qanunvericilik olduğunu qeyd etmişdir: ”Mənim tövsiyəm ondan ibarətdir ki, nəinki kəmiyyətə, daha çox keyfiyyətə fikir verilsin. Çünki mövcud olan qanunların təkmilləşdirilməsinə baxmaq, onları təftiş etmək lazımdır”. Cənab Prezident deputatların diqqətinə onu da çatdırmışdı ki, qanunvericilik missiyası ilə yanaşı, yerlərdə seçicilərlə ünsiyyət sistemi dəyişməli, deputat-seçici ünsiyyəti dövlət-xalq arasında olan bir körpü rolunu oynamalıdır.

Qanunvericilik bazasını yeniləyən, yeni çağırışlara uyğun təşəbbüslərlə çıxış edən tərkibdə formalaşan Milli Məclis Cənab İlham Əliyevin irəli sürdüyü siyasi iradə, inqilabi islahatlar kursunu uğurla həyata keçirir, ölkəmizdə aparılan genişmiqyaslı və çoxşaxəli islahatlara, onların dərinləşməsi işinə töhfələrini verir. Altıncı çağırış Milli Məclisə seçkilər bir daha Azərbaycanın demokratik cəmiyyətin varlığını təsdiqləyən bütün amillərin ölkəmizdə bərqərar olmasında maraqlı olduğunu ortaya qoydu. Altıncı çağırış Milli Məclis yeni tərkibdə və yeni müstəvidə uğurla fəaliyyət göstərir və dövlətçiliyimizin, müstəqilliyimizin qorunmasına öz töhfəsini verir. Parlament xüsusilə Azərbaycan Prezidentinin təşəbbüsü ilə həyata keçirilən islahatlar kursuna uyğun işini quraraq və normativ hüquqi bazanın formalaşdırılması istiqamətində mühüm addımlar atır. Belə ki, bir sıra qanun layihələrin müzakirə və təsdiqində önəmli rol oynayır. Bildiyimiz kimi, Milli Məclis ”Media haqqında” müzakirəyə çıxarılan yeni qanun layihəsini təsdiq etdi. ”Turizm haqqında” qanun layihəsini qəbul edib. ”Qida təhlükəsizliyi haqqında” qanun layihəsi müzakirəyə çıxarılıb. Dəyişən reallıqlar yeni mütərəqqi məzmunlu qanunların hazırlanmasını zəruri etdiyindən Milli Məclis tərəfindən müzarirlər aparılır və zamanın tələbinə uyğun olaraq öz həllini tapmış olur.

Altıncı çağırış Milli Məclis yeni tərkibdə və yeni müstəvidə uğurla fəaliyyət göstərərək dövlətçiliyimizin, müstəqilliyimizin qorunmasına öz töhfəsini verir. Beynəlxalq fəaliyyətini genişləndirir. Cənab Prezident çıxışında bildirdiyi kimi, ”Beynəlxalq təşkilatlar çərçivəsində bizim fəaliyyətimiz daha məqsədyönlü olmalıdır. Orada bizi təmsil edən deputatlar fəal olmalıdırlar, turist kimi getməməlidirlər, sonra hesabat verməlidirlər ki, nə iş görmüsən, kiminlə görüşmüsən, hansı məsələni qaldırmısan. Yoxsa bəzi hallarda bu, turist səfərlərini xatırladır. Getdik, görüşdük, oturduq, danışdıq, yedik, qayıtdıq. Özü də bəzi səfərlər, ümumiyyətlə, qəbuledilməzdir. Mən bu gün bu haqda çox danışmaq istəmirəm, amma bilirəm nə baş verir, hansı hadisələr baş verir.”

Uğurlu beynəlxalq əlaqələrini məntiqi olaraq türkdilli dövlətlərlə əməkdaşlığı istiqamətində fəaliyyəti həyata keçirilir. Beynəlxalq əlaqələrini daha da möhkəmləndirmək və inkişaf etdirmək üçün lazımi tədbirlər görür. Bu məqsədlə Azərbaycanın üzv olduğum beynəlxalq təşkilatlarda fəaliyyətini ardıcıl davam etdirir, bir sıra xarici səfərlər həyata uğurla reallaşır. Həm Bakıda, həm də xarici ölkələrdə beynəlxalq tədbirlərin, görüşlərin keçirilməsində önəmli rola malikdir.

Parlament xüsusilə Azərbaycan Prezidentinin təşəbbüsü ilə həyata keçirilən islahatlar kursuna uyğun işini qurur və normativ hüquqi bazanın formalaşdırılması istiqamətində mühüm addımlar atır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Müharibə nəticəsində hansı məhsullar bahalaşacaq?



***“Rusiya Azərbaycan idxalında və eyni zamanda, qeyri-neft ixracatında əsas ticarət tərəfdaşıdır. Azərbaycan Rusiya ilə il ərzində 2,1 milyard dollara yaxın məhsul idxal edib. Rusiyadan idxal edilən məhsulların strukturuna diqqət yetirsək buğdanın xüsusi yer tutduğunu görərik”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert, deputat Vüqar Bayramov deyib.***

**Onun sözlərinə görə, Ukraynadan da buğda idxal etməyimizə baxmayaraq məhsulun 70%-dən çoxu Rusiyanın payına düşür: ”Rusiyanın tətbiq etdiyi son qadağalardan sonra buğdanın gətirilməsində də müəyyən çətinliklərin yaranacağı gözlənilir. Bu məsələ ilə bağlı fərqli yanaşmalar var. Habelə Rusiya tərəfi yaxın zamanlarda buğda ixracatının bərpa oluna biləcəyi barədə açıqlamalar verib. Azərbaycanın Baş naziri çıxışı zamanı buğda idxalında çətinliklər olacağı halda növbəti aylarda yaranacaq tələbi mövcud ehtiyyatla qarşılamaq imkanına malik olduğunu qeyd edib”.**

**Deputat sözlərinə belə davam edib: ”Digər tərəfdən, Azərbaycan buğda ilə yanaşı, Rusiyadan günəbaxan, marqarin, soya kimi yağların idxalını da həyata keçirir. Eyni zamanda, Rusiyadan ölkəmizə şokolad və şokolad məhsulları, bir sıra dərman preparatları və başqa qeyri-ərzaq məhsullarının idxal olunduğunu qeyd etməliyik. Təbii ki, Ukraynadan da idxal prosesi baş verir. Ukraynadan daha çox tütün, siqaret, quş əti, kərə yağı, meyvə, dərman vasitələri və həmçinin iribuynuzlu heyvanlar idxal edilir. Bütövlükdə Azərbaycanın Ukrayna ilə ticarət dövriyyəsi 8 milyon dollar ətrafında dəyişir.**

**Birləşmiş Millətlər Təşkilatı (BMT) Rusiya-Ukrayna müharibəsi səbəbi ilə ümumilikdə ərzaq məhsullarının növündən asılı olaraq qiymətdə 8-22% intervalında artım olacağı şəklində proqnoz verib. İdxal inflyasiyası qaçınılmazdır. Buna görə də alternativ mənbələrin tapılması və yerli mənbələrin payının artırılmasına ehtiyac var”.**

***Ayşən Vəli***

# Ukraynadan təxliyə edilən tələbələrin təhsil problemi necə həll olunacaq?

“Ukraynada təhsil alan tələbələrin ölkə universitetlərinə yerləşdirilməsi faktiki olaraq mümkün deyil. Çünki onların 95-96 faizi sırf öz hesabına attestatla qəbul olan tələbələr idi və belə olan halda da dövlət xətti ilə qəbul olunmadığı üçün onların ölkə universitetlərinə yerləşdirilməsi hələ ki, real görünmür”. Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi deyib.

Onun sözlərinə görə, ola bilər ki, Ukraynada yenidən həmin tələbələrin restavrasiyası, universitetlərin bərpası mümkün ola bilər və tələbələr geri qayıdar: ”Əgər bunlar alınmasa, ondan sonra həmin tələbələrin ölkə universitetinə yerləşdirilməsi ilə bağlı müvafiq müzakirələr aparıla bilər. Ukrayna universitetlərinə dövlət xətti ilə qəbul olanlar da çox cüzi say təşkil edirdi. Onların yerləşdirilməsi mümkün ola bilər. Çünki həmin şəxslərin qəbulu dövlət tərəfindən aparılmışdır və yeri gəlmişkən onu da qeyd edim ki, bu problem təkcə Ukraynada təhsil alanlarla bağlı deyil. Artıq son 2-3 gündür ki, Rusiya universitetlərində təhsil alan tələbələrimizlə bağlı müvafiq problemlər yaranıb, yaşam şəraiti ilə bağlı bir neçə tələbə müraciət edib, hətta bildirdiklərinə görə Rusiyadakı səfirliyə də müraciət ediblər”.

Elçin Əfəndi sözlərinə belə davam edib: ”Onlar ölkə universitetlərinə transfer olunmaq istəyirlər. Amma hal-hazırda bu da real deyil. Çünki transfer iyul ayında aparılacaq. Düşünürəm həmin tələbələrə bağlı müvafiq olaraq dövlət tərəfindən bir dəstək olunmalıdır. Sırf attestatla qəbul olan tələbələrin gələcəkdə ölkə universitetinə xüsusilə də özəl universitetlərə yerləşdirilməsi mümkün ola bilər. Təbii ki, bununla bağlı Təhsil Nazirliyi tərəfindən müvafiq işlər aparılmalıdır. Amma təəssüflər olsun ki, hal-hazırda bu istiqamətdə müzakirə aparılmır və yaxud da hansısa bir iş görülmür”.



***Ayşən Vəli***

# Novruz bayramında necə qidalanmalıyıq?

***"İlaxır çərşənbəmizi də yola saldıq. Artıq Novruz bayramının astanasındayıq. Çoxumuz onun gəlişini səbirsizliklə gözləyirik. Novruzda bişirilən xörəklər, şirniyyatlar sanki xüsusilikləri ilə seçilir. Yeməyə həvəsli olan bir çoxumuz xörəklər bir yana, bolluca paxlava, şəkərbura, qoğal, badambura və saymaqla bitməyən şirniyyatlardan dadacaq, bayramın kefini çıxaracağıq. Hətta aramızda pəhrizlərini pozanlar, həddindən artıq qidalanıb, sonra bunun əziyyətini çəkənlər də olacaq". Bu sözləri SİA-ya açıqlamasında həkim-dietoloq Sevinc Həsənzadə deyib.***

Onun sözlərinə görə, bayram günlərində ilk növbədə qidalanmanın optimal rejiminə əməl etmək lazımdır: ”Belə ki, gün ərzində 2-3 saatdan bir müəyyən miqdarda qida qəbul etmək məsləhətdir. Bu, toxluğa səbəb olaraq normadan artıq qida qəbulunun da qarşısını alacaqdır. Həmçinin yeməklərin və digər qidaların istifadəsi balanslaşdırılmalıdır. Qidaları qarışdırmamaq və müəyyən həddin gözlənilməsi vacib şərtdir. Həddindən artıq yemək mədə-bağırsaq sistemi üçün problemlər yaradır.

Novruz bayramı daha çox şirniyyat bayramı kimi qəbul olunur. Bayramın yaxınlaşdığı indiki dövrdə insanları məlumatlandırmaq bir həkim-dietoloq kimi özümə borc bilirəm”.



Dietoloq sözlərinə belə davam edib: ”Bayram müddətində insanlar gərək normadan çox artıq şirniyyat yeməsinlər və orqanizmi yükləməsinlər. Daxili orqanları qorumaq üçün artıq kaloridən çəkinmək lazımdır. Çox zaman bayramlarda yemək süfrəsi ilə çay süfrəsi bir arada təşkil edilir. Bu zaman insanlar heç bir ölçü müəyyən etmədən, porsiyaya fikir vermədən yemək və şirniyyat qəbul edirlər. İnsanlar bilməlidir ki, 1 ədəd şəkərburanın kalorisi 600-650 kaloridir. Bir porsiya plovun da kalorisi eynən bu qədərdir. Plov yeyərkən ən azı insanlar bunun ağır yemək olduğunu bilir, ancaq qoğal, şəkərbura, paxlavaya qətiyyən məhdudiyyət qoymurlar, ölçüsüz qəbul edirlər. Hər çay içəndə paxlava, şəkərbura yeyilir. Ən önəmli məsələ isə ölçünü itirməməkdir. Əgər az miqdarda şirniyyat qəbul etsələr, zaman keçdikcə onlardan əldə olunan kalorini yandırmaq da olar. Paxlava və şorqoğal da hərəsi 700 kaloridir. Yəni Novruz ağır karbohidratlı qidalar bayramıdır. İnsanlarımız nəzərə almalıdırlar ki, bayram bir gün deyil, günlərlədir. Əvvəllər bu şirniyyatlar yalnız bayramda bişirilirdi, ona görə də Novruzun gəlişi daha çox sevindirici olurdu. İndi ilboyu hər yerdə satılır, bayram olmayan günlərdə də insanlar onu alıb yeyirlər.

SORĞU

İlk növbədə yaşlı, cavan, uşaq fərq etmir şəkərli, yüksək təzyiqli və digər xəstəliyi olan insanlar yediklərinə xüsusilə bayramda diqqət etməlidir.

Eyni zamanda, dieta saxlayan şəxslər bayramda istədiyini yeyə bilməyərək özünü digərlərindən seçilmiş sayır. Bu isə bədəndə stress hormonunun artmasına səbəb olur. Həmin hormonun artması digər hormonlara da təsir edir və bu zaman insulinin ümumi səviyyəsi qalxır. Bu o deməkdir ki, arıqlamaq prosesi getmir. İnsulin isə mədəaltı vəzin ifraz etdiyi hormon olaraq piylərin parçalanmasının qarşısını alır. Ona görə də dieta saxlayan insanlar 2 gün istədikləri qidalardan yeyə bilər. Amma 2 gündən sonra pəhrizlərinə davam etməkləri məsləhətdir.

Bayram günlərində insanlara qidalanma ilə bağlı hansısa qayda deyildikdə, onsuz da onlara riayət etmirlər. Ona görə də psixoloji olaraq onları sıxmamalı, həm də başqa insanlardan seçilməmələri üçün fərq qoymamalıyıq.

İstər pəhriz saxlayan, istərsə də saxlamayan insanlar bir qayda olaraq yeməkdən yarım saat əvvəl 250 qram (1 stəkan) su içməlidir. Bu, insanda həm toxluq hissi yaradır, həm də qarşısına qoyulan qida rasionunun 50 faizini yemiş olur”.

Sağlam qida mütəxəssisi Ağa Salamov da məsələ ilə bağlı münasibət bildirib: ”İnsanlar bayramda istirahət etməklə yanaşı, həm də həddindən çox qida qəbul edərək mədələrini yükləyirlər. Bu qidalanmanın yaxşı tərəfləri olduğu kimi xoşagəlməz tərəfləri də var. Bunun yaxşı tərəfi adət-ənənəyə uyğun olaraq hər bir evdən o yeməklərin, təamların qoxusu çıxmasıdır. Bu, hər şeyin bol, ruzili-bərəkətli olduğunu göstərir. Xoşagəlməz tərəfi isə insanların bəzən normanı aşmasıdır. Ona görə də bayramda diqqətli olmaq lazımdır.

Yeməklərin bişən kimi süfrəyə təqdim edilməsi gərəkdir. Eyni zamanda, yeməkləri hansı ki riskli hesab olunan qidaları süfrədə də çox saxlamaq məsləhət görülmür. Bayramda süfrəmizin bəzəyi olan şəkərbura, paxlava kimi kalorili təamlar da həddindən çox yeyildikdə mədəyə ağırlıq edir. Belə şirniyyatların hamısını birdən yemək olmaz. Ara verərək qəbul etməli, mədəyə yüklənməməlidirlər. Həmçinin, mədəaltı vəzin yüklənməsinə, həzm prosesinin pozulmasına gətirib çıxarır. Ona görə qida rasionuna diqqət etmək, yeməklər arasında fasilə vermək lazımdır. Ümumiyyətlə, yeməkləri yatmadan 4 saat öncə istehlak etmək daha doğru olar”.

***Ləman Əlizadə***

# Birləşmiş Ərəb Əmirlikləri ilə münasibətlər hansı səviyyədədir?



***“Cənab Prezident İlham Əliyev ötən gün Birləşmiş Ərəb Əmirliklərinin nümayəndələrini ölkəmizdə qəbul etdi. Ondan əvvəl isə Mastar şirkəti ilə Azərbaycan arasında enerjinin bərpa olunması ilə bağlı müqavilə imzalandı. Azərbaycan bərpa olunan ernerji ilə bağlı gələcəkdə kifayət qədər bir sıra işlər görəcək. Bildiyiniz kimi işğaldan azad olunmuş ərazilərimizdə yeni külək və enerji istiqamətində artıq işlərə başlanılıb. Ümumiyyətlə gələcəkdə Azərbaycan bu istiqamətdə şaxələndirmə siyasətinə üstünlük verəcək". Bu sözləri SİA-ya açıqlamasında politoloq Zaur Məmmədov bildirib.***

Onun sözlərinə görə, cənab Prezident İlham Əliyev tədbir çərçivəsində qeyd etdi ki, ölkəmizin enerji təhlükəsizliyi tam təmin edilib və ildən-ilə artan təbii qazın ixracı və elektrik enerjisinin ixracı digər ölkələrin enerji təhlükəsizliyinə də müsbət təsir göstərir. Ancaq onu da bilməliyik ki, ölkə sürətlə inkişaf edir. Keçən ilin yekunlarına görə, bizim neft və qazla bağlı olmayan, yəni qeyri-neft sənayemiz təxminən 20 faiz artıb. Ölkə əhalisi artır. Ona görə təbii ki, biz yeni enerji növlərinin istehsalı ilə ciddi məşğul olmalıyıq. Bərpa olunan enerji növlərinin istehsalı enerji sahəsində bizim gündəliyimizdə duran ən başlıca vəzifələrdən biridir: ”Ümumiyyətlə son zamanlar Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan arasında sıx təmaslar hiss olunmaqdadır. Bu münasibətlər onu göstərir ki, cənab Prezident planetin ayrı-ayrı regionları ilə bərabərhüquqlu və ikitərəfli əməkdaşlığın inkişafında maraqlıdır. Əlbəttə ki, Birləşmiş Ərəb Əmirlikləri həm zəngin enerji yataqlarına, həm də maliyyə vəziyyətinə görə dünyada sayılıb-seçilən dövlətlərdən biridir. Təsadüfi deyil ki, Ukrayna hadisələri fonunda hər iki dövlət, ABŞ və digər dövlətlər sıx şəkildə həm Səudiyyə Ərəbistanı ilə həm də, Birləşmiş Ərəb Əmirlikləri ilə sıx şəkildə əlaqəyə keçiblər. Birləşmiş Ərəb Əmirlikləri tərəfindən Azərbaycana verilən investisiyaların da sayı artmaqdadır.

Bildiyiniz kimi pandemiyaya qədər Birləşmiş Ərəb Əmirliyi tərəfindən Azərbaycana səfərlər olunurdu. Lakin pandemiyadan sonra turizm sahəsində də gediş-gəlişin artacağına şahid olacayıq. Ümumiyyətlə Azərbaycan və BƏƏ arasında sıx biznes əlaqələri də mövcuddur. Düşünürəm ki, Yaxın Şərqin önəmli dövlətlərindən olan BƏƏ ilə Azərbaycan arasında münasibətlər artan xəttlər üzərində inkişaf edəcək”.

***Banuçiçək Hüseynli***

# NATO-nun genişlənməsi Rusiyanı ciddi şəkildə narahat edir

***“NATO-nun sülh və ya müharibə istəməsi ilə bağlı hələ konkret bir fikir söyləmək çətindir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov bildirib.***

Onun sözlərinə görə, çünki NATO Şərqə doğru 1997-ci ildən bəri genişlənir və üzv dövlətlərin sayını artırmaq ilə məşğuldur: ”Rusiyanın isə mövqeyi Şərqə doğru genişləndirilmənin dayandırılmasından ibarətdir. ABŞ-ın və NATO-nun siyasi sahədə keçirilmiş danışıqlarla bağlı mövqeyində fikir ayrıseçkilikləri var. NATO-nun genişlənməsi Rusiyanı ciddi şəkildə narahat edir. Təhlükəsizlik zəmanətləri ilə bağlı yüksək səviyyəli görüşlərdə də bu məsələlər qaldırılıb. Rusiya NATO-nun Şərqə doğru genişləndirilməsinin dayandırılması ilə yanaşı, həm də Ukraynanın neytrallıq statusunda mövqeyini bildirməsi əsas istəklər sırasındadır. Çünki Ukrayna NATO-nun üzvü olarsa, artıq Rusiya NATO dövləti ilə həmsərhəd olacaq. Eyni zmanda Ukrayna ərazisində gələcəkdə yerləşdirilən strateji əhəmiyyət kəsb edən raket kompleksləri ilə Rusiyanın böyük şəhərləri kifayət qədər qısa zaman kəsiyində hədəfə çevrilə bilir. Bu baxımdan Rusiya öz təhlükəsizliyini təmin etmək üçün NATO ilə həmsərhəd olmaqdan çəkinir. Bu xüsusda öz hərbi, siyasi doktrinasını qurur. Eyni zamanda NATO-nun da Ukraynaya ciddi siyasi, iqtisadi dəstəyi hiss olunur. Hazırki durumda da hərbi logistika əməliyyatları icra olunur. Rusiya öz qoşunlarını sərhəddən çəkən gündən başlayaraq uzun müddətdir ki, Ukrayna müdafiə silahları ilə silahlanır. Ukraynanın müdafiə qabiliyyətinin artırılmasında NATO iştirak edir. NATO-ya üzv olan ölkələr öz şəxsi heyətindən, keçmiş döyüşçülərindən də ora göndərirlər. Onlar Ukrayna ordusunun tərkibinə daxil olurlar. Bu isə müharibənin daha uzun müddət edəcəyinə də bir işarədir. Sülh ilə bağlı çağırışlar da siyasi gündəlikdə nə qədər aktuallaşsa da yekun qərar əldə etmək mümkün olmayıb. Buna görə Rusiya da, NATO da bağlı istəkləri çağırışları yetərsiz qalır”.

***Səbinə Hüseynli***



# Rusiyanın Ukraynadakı uğursuzluqlarının səbəbləri nədədir?

## Rus səhra komandiri Rusiyanın səhvlərindən danışdı



***Rusiyanın səhra komandiri Iqor Sterlkov Ukraynadakı hərbi əməliyyatlardakı uğurusuzluqlarını etiraf edərək onun səbəblərini izah edib. Belə ki, Rusiya ordusunun Ukraynaya beş taktiki istiqanmətlərdən sərt hücuma başlamasının dalana dirənməsinin hansı səhvləri üzündən baş verdiyini deyən Strelkova görə, sözügedən istiqamətlərinin heç birində Ukrayna silahlı qüvvələrinə məxsus iri birləşmələr nə mühasirəyə alına bilindi, nə də onlara qarşı istənilən əməliyyat nəticələri əldə olunmadı.***



**Rusiya ordusunun canlı qüvvə baxımından üstün olmasına rəğmən, hərbi hissələrinin və birləşmələrinin təminatları yetərli olmayıb**

Xerson şəhərinin rus ordusu tərəfindən ələ keçirilməsi məsələsinə toxunan Strelkov bunu ukraynalıların taktiki geri çəkilməsi və bu şəhərdə hərbi qarnizonun olmaması ilə əlaqələndirib.

Onun sözlərinə görə, məhz Xerson şəhəri faktiki olaraq döyüşsüz təhvil verilib. Lakin digər istiqamətlərdəki uğursuzluqlar Rusiya ordusunun canlı qüvvə baxımından üstün olmasına rəğmən, hərbi hissələrinin və birləşmələrinin təminatları yetərli olmayıb.

”Mən anlamıram ki, operativ vəziyyəti anlamadan, müəyyən etmədən bu qədər iri miqyaslı əməliyyat nəyə görə başlanıldı. Ya qarşı tərəfin gücü doğru qiymətləndirilməyib, ya da ümumiyyətlə, onların qüvvələrinə qiymət verilməyib”, deyən Strelkov rusların bu məsələdə də nə qədər böyük səhvlərə yol verdiyini etiraf edib.





### Yanukoviç-Koçaryan müqayisəsi?

”Ukrayna ordusu komandanlığımızın gözləntilərinin əksinə olaraq sərt müqavimət göstərdi”, deyən səhra komandirinə görə, Rusiya komandanlığı hesab edirdi ki, ukraynalıların ordusu 2014-cü ildə olduğu kimi silahı yerdə qoyacaq, ona görə də müdaxilə edərkən Ukrayna silahlı qüvvələrinin toplaşdıqları iri birləşmələrinə hücumlar edilmədi. ”Nəticədə onlar yenidən qruplaşaraq təşkilatlandırdılar və döyüşə girdilər”, deyə Strelkov bildirib.

O, həmçinin Ukraynanın maydana qədərki rəhbərliyinin hakimiyyətə gətirilmə cəhdlərini də fatal səhv kimi qiymətnədirib. Onun sözlərinə görə, prezident Yanukoviçi nə Donbasda, nə də Krımda sevmirdilər.

Lakin ən maraqlısı, Strelkovun televiziya vasitəsi ilə çıxışı zamanı aparıcı Rusiyanın Ermənistanın sabiq prezidenti Robert Koçaryanı yenidən hakimiyyətə gətirməsi istiqamətindəki uğursuz cəhdlərini xatırladıb.

*Rövşən RƏSULOV*

# Azərbaycan elektrik enerjisini ixrac edən ölkələrdən birinə çevrilib



“Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə qardaş və dost ölkənin, Birləşmiş Ərəb Əmirliklərinin tanınmış enerji şirkətlərindən olan ”Masdar” şirkəti ilə Qaradağ rayonunda bərpaolunan enerji layihəsinin təməli qoyulub”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Cavid Osmanov bildirib.Onun sözlərinə görə, ilin əvvəlində də Azərbaycana dost ölkə olan Səudiyyə Ərəbistanın ”ACWA Power” şirkəti ilə belə bir layihənin həyata keçirilməsi ilə bağlı təməl qoyulmuşdur: ”Bu onu göstərir ki, Azərbaycana xarici dövlətlərin investisiya qoyması üçün münbit şərait yaradılmışdır. Xüsusən də bərpaolunan enerji sahəsində dünyanın tanınmış aparıcı şirkətləri tərəfindən belə bir layihələrin investisiya olunması, həmçinin bu layihələrin Azərbaycanda keçirilməsi çox əlamətdar bir hadisədir. Bu gün dünyada, xüsusən Azərbaycana qonşu olan ölkələrdə, Avropa ölkələrində də elektrik enerjisinə çox böyük tələbat var. Azərbaycan artıq elektrik enerjisini ixrac edən ölkələrdən birinə çevrilib. Nəzərə alaq ki, Azərbaycan bu sahədə özü-özünü təmin edir və onu da nəzərə alaq ki, hər hansı bir ölkə elektrik enerjisi ilə özünü təmin edə bilmirsə o ölkənin inkişafından söhbət belə gedə bilməz. Amma Azərbaycan bu sahədə cənab İlham Əliyevin rəhbərliyi ilə çox uğurlu bir yol keçib. Bərpaolunan enerjinin Azərbaycanda həyata keçirilməsi böyük potensialdır. Gələcəkdə də bu sahədə elektrik enerjisini istehsal edib həm region ölkələrinə, həm də Avropa ölkələrinə ixrac edərək Azərbaycan bu sahədə də nümunəvi bir addım atacaq. Bununla da ölkəmizin yeni əməkdaşlıq platformalarında, həmçinin gələcəkdə beynəlxalq aləmdə yerini və rolu daha da artacaq. Eyni zamanda ölkəmiz əlavə valyuta gəliri ilə təmin olunacaq. Bu da ölkəmizin ümumi inkişafına böyük töhfə verəcək”.

*Abutel İlhamqızı*

# “Dezinformasiya yaymaqda davam edirlər”

“Bu günlərdə Avropa Parlamenti Azərbaycana qarşı növbəti qərəzli qətnamə qəbul edib. Martın 10-da qəbul olunan guya ”Qarabağda erməni mədəni irsinin məhv edilməsi ilə bağlı” qətnamə Avropa dövlətlərinin keçmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində davam etmiş uzun illik diplomatik prosesdə ölkəmizə qarşı həyata keçirdiyi ikili standartın və riyakar siyasətin, həm 2020-ci ilin sentyabrında başlamış 44 günlük Vətən müharibəsində, həm də Azərbaycanın Zəfərindən sonra dövlətimizə qarşı nümayiş etdirdiyi ayrı-seçkiliyin daha bir təzahürüdür. Sənəddə iddia olunur ki, Azərbaycan Qarabağda ”erməni mədəni irsini dağıdır””. Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov deyib.



Onun sözlərinə görə, hətta Azərbaycanın digər ərazilərində də eyni addımların atıldığı yalanı ortaya atılır: ”Şübhə yoxdur ki, Avropa Parlamenti tərəfindən qəbul olunan məlum qətnamə həmin dövlətlərin guya xristian dünyasının İslam aləmi qarşısında avanpostu olan ”əzabkeş” erməni xalqının mədəni irsinin qorunmasına deyil, Cənubi Qafqazda özlərinin siyasi təsir imkanlarını artırmağa çalışan dövlətlərin və təşkilatın maraqlarını təmin etməyə xidmət edir. Bu ədalətsiz qətnamə bir daha nümayiş etdirdi ki, vaxtilə Azərbaycan torpaqlarında yaradılan indiki Ermənistanda azərbaycanlılara məxsus bütün tarixi, mədəni və dini irsi məhv etdiklərinə dair sualları cavablandırmaq əvəzinə ermənilər Qarabağda onlara məxsus olmayan tarixi-mədəni irsin guya məhv edilməsi ilə bağlı beynəlxalq aləmdə dezinformasiya yaymaqda davam edirlər.

Azərbaycan Naminə Alyans Partiyası erməni yalanlarına əsasən hazırlanan və Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə ermənilərə məxsus tarixi-mədəni abidələrin dağıdılması ilə bağlı yalan faktları özündə ehtiva edən qətnamənin erməni lobbisisinə yaxın olan müəyyən qrupların və şəxslərin əllərində oyuncağa çevrilmiş Avropa Parlamenti tərəfindən qəbul edilməsini Azərbaycana qarşı növbəti ədalətsiz addım kimi qiymətləndirir və həm Avropa Parlamentini, həm də digər beynəlxalq qurumları bu cür tarixi həqiqətlərə və hüquqa zidd addımlardan çəkinməyə çağırır”.

*Arzu Qurbanzadə*

# Düşünülmüş insan qətli

## 19 Mart terror aktından 28 il ötür

***Terrorizm müasir dövrün ən təhlükəli təzahürlərindən biridir və müasir dünya bunun acı nəticələrini hələ də yaşayır. Terrorizm haqqında birmənalı tərif olmasa da, mütəxəssislərin əksəriyyətinin qənaətinə görə siyasi, dini, ideoloji və iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni əməllərin, zorakılığın, gücün, hədənin tətbiq olunmasıdır. Təbii ki, real həyatda terror aktlarından daha çox günahsız insanlar, dövlət adamları ziyan çəkir və siyasi, etnik, dini və s. zəmində yaranan terrorların şahidi oluruq.***



Tarixin müxtəlif dönəmlərində Azərbaycan xalqı terror aktlarının, vəhşiliklərin, soyqırımların acı nəticələrini yaşamışdır. Bunlardan biri də 1994-cü il martın 19-da erməni xüsusi xidmət orqanlarının təşkilatçılığı ilə Bakı Metropoliteninin "20 Yanvar" stansiyasında törədilən terror aktıdır ki, artıq həmin tarixdən 28 il ötür. Terror nəticəsində, 14 nəfər həlak olub, 49 nəfər yaralanıb. Həlak olanların arasında Azərbaycan Respublikasının xalq artisti Rafiq Babayev də var idi.

Məhkəmə sübut edib ki, 19 mart saat 13:00-də "20 Yanvar" metrostansiyasında saat mexanizmi ilə təchiz edilmiş əldədüzəlmə partlayıcı qurğu qatarın ilk vaqonunda, qatar dayanarkən partlayır. Terror aksiyası Ermənistan xüsusi xidmət orqanları tərəfindən hazırlanıb, separatçı "Sadval" ləzgi təşkilatının üzvləri tərəfindən həyata keçirilib. Müəyyən olunub ki, "Sadval" separatçı təşkilatının həmin fəalları, 1992-ci ildən etibarən dəfələrlə Ermənistanda olub, bu ölkənin Milli Təhlükəsizlik Baş İdarəsi təşkilatın formalaşmasında, maliyyələşməsində və silahlanmasında yaxından iştirak edib.

1992-ci ilin aprel-may aylarında 30 nəfər milliyyətcə ləzgi olan Azərbaycan vətəndaşı Ermənistanın Nairi rayonunun Lusakert qəsəbəsində yerləşən təlim-məşq bazasında xüsusi terror-təxribat hazırlığı keçib. İstintaq zamanı müəyyənləşdirilib ki, təxribatçılar təlimata uyğun olaraq, "20 Yanvar" stansiyası ilə yanaşı, Bakının "Nizami" kinoteatrında, Respublika Sarayında və Bakı Lampa zavodunda da partlayışlar törətməyi planlaşdırıblar.

"20 Yanvar" metrostansiyasında partlayışın törədilməsində ittiham olunan və Ermənistanda xüsusi terror-təxribat hazırlığı keçmiş 30 sadvalçı cinayət məsuliyyətinə cəlb edilib.

Xatırladaq ki, 1994-cü ilin iyul ayının 3-də Bakı metrosunda ikinci terror aktı oldu. Saat 20:30-da "28 May" metrostansiyasından çıxan, "Gənclik" metrostansiyasının platformasına 500 metr qalmış, elektrik qatarını ikinci vaqonunda partlayış baş verir. Partlayışdan sonra qatarda yanğın olur. Terror aktı nəticəsində 13 nəfər həlak olmuş və 58 nəfər isə yaralanmışdır.

Bu və ya digər erməni terror təşkilatlarının törətdikləri terror aktlarına nəzər salsaq, nələrin baş verdiyinin bir daha şahidinə çevriləri̇k: 16 sentyabr 1989-cu ildə "Tbilisi-Bakı" marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 5 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır. 18 fevral 1990-cı ildə Yevlax-Laçın yolunun 105-ci km-də "Şuşa-Bakı" marşrutu ilə hərəkət edən avtobus partladılmış, çoxlu insan tələfatı olmuşdur. 11 iyul 1990-cı ildə "Tərtər-Kəlbəcər" sərnişin avtobusu partladılmış, dinc əhali olan maşın karvanına qarşı terror aksiyası keçirilmiş, nəticədə, 14 nəfər qətlə yetirilmiş, 35 nəfər yaralanmışdır. 10 avqust 1990-cı ildə "Tbilisi-Ağdam" marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 20 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır. Cinayətin təşkilatçıları A.Avanesyan və M.Tatevosyan cinayət məsuliyyətinə cəlb olunmuşlar. 30 noyabr 1990-cı ildə Xankəndi aeroportu yaxınlığında sərnişin avtobusu partladılmış, 2 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır. Bu terror aktlarını sadaladıqca bitmir. Hər biri neçə-neçə insan ölümünə səbəb olub.

Bəli, terror-düşünülmüş insan qətlidir. İnsanların qəsdən məhv edilməsi cəhdidir ki, bütün bu və ya digər hadisələri törədənlər də, məhz ermənilərdir, erməni terrorunun izləridir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Bizim üçün münaqişə bitib"

***"Müharibələr zamanı məğlub olmuş dövlətlər bir qayda olaraq postmüharibə dönəmindəki problemlərin həlli ilə bağlı məsələlərdə daha zəif mövqe və imkanlara malik olurlar. Savaşı udmuş tərəfin diktəsi ilə gedə biləcək danışıqlarda aciz durumda qalmamaq uçun vasitəçi tərəflərin dəstəyinə ehtiyac dururlar". Bunu SİA-ya açıqlamasında politoloq Elşən Manafov deyib.***



Onun sözlərinə görə, hazırda Ermənistan və Azərbaycan arasında gedən danışıqlarda ölkəmiz qalib tərəf olaraq şərtlərini diktə edir: "Ordumuzun qələbəsi diplomatiyamızın da öz iş üslubunu hücum müstəvisi üzərinə keçirilməsinə şərait yaratmış, imkanlarımızı genişləndirmişdir. Münaqişə tərəfləri arasında postmünaqişə dönəmi üçün həll edilməli olan məsələlər 2020-ci ilin Moskva razılaşmasının şərtlərində öz əksini tapmışdır. Erməni tərəfi həmin razılaşmanın şərtlərinə müvafiq olaraq ərazimizdən öz qoşunlarını çıxartmalı, müharibə nəticəsində bağlanmış olan nəqliyyat kommunikasiya dəhlizləri açılmalı, iki dövlət arasında sərhədlərin demarkasiyası ilə bağlı məsələlər öz həllini tapmalıdır. Tərəflər arasında bu məsələlərin həlli ilə bağlı razılıqlar əldə edildikdən sonra nəhayət ki, bölgədə sülh və sabitliyin təmin edilməsində müstəsna əhəmiyyətə malik olacaq sülh müqaviləsi imzalanmalıdır".

E.Manafov onu da bildirdi ki, erməni tərəfi ilk baxışda bu məsələlərin ətrafında müzakirələrə hazır olduğunu bəyan etsə də, gerçəklikdə danışıqları uzadır, onları vasitəçilərin dəstəyi və iştirakı ilə aparmağa ümid edir: "Bu da anlaşılandır, əvvəla ATƏT-in Minsk Qrupunun bütün bu illər ərzində süst və ədalətdən xeyli uzaq mövqeyi, problemin həlli məqsədi ilə təklif edilən layihələrin qeyri rentabelliyi, tərəfkeşliyi və s. daha çox erməni tərəfinin maraqlarına uyğun olmuşdur, danışıqları danışıqlar naminə aparmaqla erməni tərəfi və bəlli dairələr Azərbaycan tərəfinin uzun və yorucu danışıqlardan usanacağına, nəticə etibarı ilə qlobal maliyyə və güc mərkəzlərinin təzyiqi ilə güzəştə gedəcəklərinə ümid edirlər. Lakin bu məsələdə xalq və iqtidar arasında olan birlik, dövlətçiliyin problemin hərbi yolla həllinə hazırlanması, düzgün düşünülmüş strategiya və taktika, məqam və fürsətin, müharibə ərəfəsində regionda qüvvələr balansının dəqiq hesablanması, milli birlik və vəhdət ali baş komandanın nəzarəti altında həyata keçirilən dəmir yumruq siyasətinin uğurunu təmin etdi. Azərbaycan xalqı və ordusu münaqişə ilə bağlı BMT TŞ-nin zamanında qəbul etdiyi qətnamələrin icrasına özü və birtərəfli şəkildə nail oldu, bizlər uçun münaqişə əsasən bitib və yenidən kimlərin isə danışıqlarda vasitəçilik etmək zərurətinə də ciddi ehtiyac qalmamışdır. Regional Təhlükəsizlik və əməkdaşlıqla bağlı bütün problemləri 3 +3 formatında həll etmək və həyata keçirmək mümkündür. Azərbaycanın birbaşa iştirakı və səyləri nəticəsində region və ətrafındakı yeni geosiyasi reallıqlar Qərbdəki "həmkarlarımızı" qane etmədiyindən onlar artıq yola düşməkdə olan qatarın sərnişinləri olmaq uçun bilet almaq sövdasına düşüblər".

***Gülyana***

# Bu cür "millət" yalnız erməni ola bilər!

## *Yaxud, vaxtilə havadarlıq edənin üzünə ağ olmaq həyasızlığı - təhlükəli erməniçilik gerçəkliyi*

***Erməni xalqının içində normal düşüncəli, hadisələrdən doğru nəticə çıxaran insanların cüzi olsa belə, mövcudluğu qənaətinə gələ bilərik. İstər Birinci Qarabağ müharibəsi, istərsə də İkinci Qarabağ müharibəsi zamanı müxtəlif sosial şəbəkələrdə bu kimi tolerant düşüncələrə sahib olan ermənilərin hadisələrə vicdanlı yanaşması faktları da mövcuddur. Lakin təəssüf ki, beləlәri ya bütövlükdə insanlığa zərərli olan erməniçilik xislətinin aqressiyalarına məruz qalırlar, ya kütləviliklə hədəfə alınaraq ictimai linçlərə məruz qalırlar, ya da sadəcə aradan götürülürlər. Tarixən belə olub və bu cür də davam edir.***



Ancaq biz normal düşüncələrə malik olan və barmaqla sayılacaq həmin ermənilərin adlarını sadalamayacağıq, çünki onlar haqqında kifayət qədər danışılıb, deyilib və yenidən xatırlatmağa da ehtiyac yoxdur. İnternet resurslarında da onların bəziləri haqqında məlumatlar mövcuddur. Lakin...

Lakin azlıq çoxluğa məğlub olduğu üçün, bu səbəbdən, çoxluğun, yəni humanizm prinsiplərinə, insani dəyərlərə, normal düşüncəyə qarşı təhlükəli erməniçilik xislətinin növbəti sübutu haqqında bəzi qeydlərimizi aparmaq istərdik. Beləliklə, keçək mövzuya.

### Təəssüf edirsən ki, Allah səni məhz həmin "millətlə" qonşu edib

Bugünlərdə İrəvanda toplaşan Qarabağ erməniləri Rusiya səfirliyinin qarşısında aksiya keçirib "Rossiya pomoqi" (Rusiya kömək et) şüarlarını qaldırıb tələblərini irəli sürüblər, hətta onların içlərindəki fəalları birbaşa səfirlər görüşmək










üçün canfəşanlıq sərgiləyiblər. SİA xəbər verir ki, bu barədə armenianreport saytının analitik bölümündə "Artsaxlılar yenidən öz xilaslarını sivilizasiyalı dünyadan deyil, onları satmış Rusiyadan umurlar" sərlöhvəli məqaldə yazılıb. Təkcə həmin məqaləyə kiçik nəzər salarkən istər-istəməz bir "millətin" (burada irqçilik mövqeyi nəzərə alınmır, faktlara söykənilir - R.R.) nə qədər aşağı və idbar düşüncələrə malikliyinin şahidinə çevrilirsən və təəssüf edirsən ki, Allah səni məhz həmin "millətlə" qonşu edib. Fakt budur ki, bu gün özlərini "dünyanın ən qədim", "ən ağıllı" varlıqları olduqlarını zorla bəşəriyyətə sırımağa çalışan ermənilər hazırkı dövrə qədər yalnız öz mənafelərini güdməklə başqalarının onlara borclu olduğunu düşünüblər və bu gün də həmin düşüncələrində qalmağa davam edirlər. Fəqət, daha bir fakt budur ki, "erməni", "hay" adlandırılan məxluqlar soysuzları hətta onlara əl tutan, yardım edən, lakin sonradan hər hansı bir səbəb üzündən həmin yardımlarını azaldan başqa xalqları və millətləri dərhal özlərinə düşmən elan edirlər. Sözügedən məqalədə də məhz həmin amil özünü nəzərəçarpacaq dərəcədə nümayiş etdirməkdədir.

### Bir qism erməni ruslardan pənah umur, digər qism erməni isə rusları "xəyanətdə" ittiham edərək təhqirlərə məruz qoyur - ikibaşlı ilan reallığı

Beləliklə, Qarabağ erməniləri Rusiya səfirliyinin qarşısında toplaşıb xorla ruslardan xilas diləyiblər və bundan qeyzə gələn armenianreport saytının baş analitik yazarı Tevos Arşakyan qarabağlı ermənilərin ruslardan imdad ummalarını necə deyərlər, rusları təhqirlərə məruz qoymaqla hədəfə alıb, fikrini əsasən, İkinci Qarabağ müharibəsində Rusiyanın Ermənistana və ermənilərə qarşı "satqınçılğı" ittihamı üzərində qurub, "iki müstəqil erməni dövlətinin" (Gülüncdür, deyilmi? Həm gülünc, həm də hiddət doğuran!- R.R.) hanısa xəyallarında dəm vurub və rusların onlara qarşı "xəyanətinə" görə, qarabağlı erməniləri "ağ yuyub, qara sərib" ki, niyə sivilizasiyalı Qərb qala-qala Moskvadan pənah diləyirsiniz və s. "Təəssüf ki, belə bir möhkəm praktika hələ də bizim xalqımızın ağıllarında və qəlblərində oturub", yazan erməni müəllif söhbətini gətirib-çıxarıb Putinin üzərinə..!

Sən demə, Azərbaycan dövləti və xalqı öz tarixi, əzəli və beynəlxalq hüquq çərçivəsində tanınan ərazilərini məhz həmin bu ermənilərin işğalından azad edərkən, Putin bütün bunların qarşısını almalıymış (?!) Deməli, 30 il öz yurd-yuvalarından, öz torpaqlarından qaçqın düşmüş yüz minlərlə azərbaycanlılar ermənilər üçün ümumiyyətlə mövcud deyilmiş, amma həmin azərbaycanlıların evlərini, torpaqlarını zəbt etmiş Şuşa, Hadrut erməniləri isə "ayrıca", "seçilmiş" adamlardırlar və Putin də bu "adamların" qeydinə qalaraq azərbaycanlıların azadlıq savaşının qarşısını almalıymış (?!) Bu qədər axmaq, sərsəm və həyasız məxluqlar varsa, ermənilərdir və yenə də ermənilərdir!

### Məgər bütün bu kimi reallıqlara görə ermənilərin qarşısında Putinmi günahkardır?

Arşakyan sual edir: "Məgər 44 günlük müharibədə erməni "dövlətlərinə" (aşırı həyasızlıq-R.R.) kömək etməyən məhz Putin deyildimi? Məgər Azərbaycanın və Türkiyənin bizə qarşı "aqressiyasını" (ultra-izafi həyasızlıq - R.R.) Kreml sanksiyalaşdırmadımı? Yoxsa Moskva "artsaxlıların" fəlakət (?!-R.R.) halında olduqlarından xəbərsizdir? (fikir verin, bir tərəfdən ittiham edir, digər tərəfdən sürüşkən krem vasitəsi ilə Kremlin "beşinci nöqtəsindən" müvafiq yerə daxil olmağa çalışır, Kremlin nə zamansa, yenidən ermənilərə qahmar çıxa biləcəyinə ümid edir -R.R.) Əlbəttə, orada hamı bilir, amma indi ruslar Ukrayna və Qərblə olan problemlərini həll edir və bizə görə Bakı ilə Ankara ilə mübahisə etməyəcəklər. Ona görə də "artsaxlıların İrəvandakı Rusiya səfirliyi qarşısındakı aksiyaları boş vaxt sərf etmək deməkdir. Və yalnız boş deyil, həm də alçaldıcıdır".

Deməli, "erməni düşüncəsi" deyilən reallıq budur ki, Putin Qarabağ müharibəsində açıq-aşkar ermənilərə yardımlar göstərməliymiş. Göstərməyibsə, onda ermənilərin ruslardan dilək-diləməsi alçaqlığıymış. Halbu ki, erməni açlaqçlıqları barədə düz-dünyada hər kəs məlumatlıdır, hər kəs agahdır!

Başqa tərəfdən, məqalənin müəllifi etiraf etmir ki, ermənilər azərbaycanlılara qarşı məhz 30 il boyunca, özü də demək olar ki, havayı verilən rus silahları, rus zirehli texnikaları, rus raketləri, rus artilleriyaları və tankları vasitəsi ilə işğalçılıq siyasəti yürüdüblər. Birinci Qarabağ müharibəsində də rusların dəstəyi ilə torpaqlarımızı ələ keçiriblər. Lakin həmin vaxtlar dünyanın siyasi çevrəsi, geobaxışı, qlobal siyasi orientasiyası da tamamilə başqa cür idi. Sadəcə, bu illər ərzində Azərbaycan Ermənistandan fərqli olaraq istər regional, istərsə də dünyəvi əhəmiyyətini sübuta yetirdi, gücləndi, qüdrətli ordu yaratdı, xalq birliyini qazandı və nəhayət - Qarabağ torpaqlarının azad edilməsi üçün hərəkətə keçdi. Məgər bütün bu kimi reallıqlara görə ermənilərin qarşısında Putinmi günahkardır? Putin deməliydi ki, ay Azərbaycan, öz torpaqlarını işğaldan azad etmə? Yoxsa indiki Ukrayna kimi Azərbaycana da hərbi müdaxilə etməli, erməni maraqlarına görə əsgərlərini od-alovun içinə atmaqla onsuz da beynəlxalq aləmdə elə də yüksək olmayan siyasi reputasiyasını daha da pis vəziyyətə doğru sürükləməliydi?

Bax, erməni xisləti, erməniçilik yanaşması da deyəndə məhz bu reallıqları nəzərə almaq lazımdır!

### Bədnam düşmənin ilansayağı başı yalnız əzilməmlidir, bütövlükdə qopardılıb-atılmalıdır, mütləq və qeyd-şərtsiz!

Hələ bu harasıdır? Bu "adam" elə sanır ki, İrəvanda aksiya keçirilərkən Kreml həmin aksiyanı əlahiddə bir hadisə kimi nəzərə almalı və mütləq ermənilərin xeyrinə nə isə bəyan etməlidir (?!-R.R.) Ancaq sən saydığını say, gör fələk nə sayır!

Rusiya XİN-nin rəsmi təmsilçisi Mariya Zaxarova sözügedən aksiyanın səhəri günü bəyan etdi ki, Moskva Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiyası üçün ikitərəfli komissiyanın qısa müddətdə yaradılmasının tərəfdarıdır. Bundan əlavə, Zaxarova bildirib ki, martın əvvəlindən atəşkəs rejiminin mütəmadi pozulması halları baş verir. Yəni dolayısı ilə eyham vurub ki, məhz erməni tərəfi atəşkəsi pozur!

Arşakyan isə özünün axmaq xislətinə söykənərək yenə də həyasızcasına Rusiyanı hədəfə almaqla yazır ki, Moskva atəşkəs rejiminin pozulması haqqında bəyanat səsləndirərkən atəşin hansı tərəfdən pozulması haqqında susur, yəni bu ünsür istəyir ki, Rusiya atəşkəs rejiminin Azərbaycan tərəfindən pozulduğunu desin. Amma bunu da əlbəttə ki, yuxusunda görəcək. Çünki Rusiya bu məsələdə əslində balansı qorumağa çalışaraq sözdə strateji müttəfiqi sayılan Ermənistanı daha pis vəziyyətdə qoymaq istəmir. Lakin əlbəttə ki, digər müttəfiqi - Azərbaycanla da münasibətlərini yüksək səviyyədə saxlamağa çalışır və bundan sonra da belə olacaq, yəni ermənilər bundan sonra Kremldən istədikləri bəyanatlarını eşidə bilməyəcəklər!

Ona görə də bəri başdan yazır: "Açıq şəkildə aydındır ki, Rusiyadan yardım ummaq ölü bir işdir. O, artıq bizi satıb. Həm də indiki sanksiyalar altında onun dərdi ermənilər deyil. "Artsaxın" yeganə təhlükəsizlik qarantı Ermənistandr. Və yaranmış situasiyadan yeganə çıxış yolu var - "iki erməni dövlətinin" erməniləri birləşməlidirlər və düşmənin təhlükələrinə, çağırışlarınabirgə cavab verməlidirlər".

Bax, belə! Əzilmiş ilanın başı hələ də açılıb-yumulur, "iki erməni dövlətindən" zəhər buraxır. Biz isə bütün bunlardan məntiqi və doğru nəticələr hasil etməliyik. Məsələn, nəticə çıxarmalıyıq ki, Allahın bizə urcah etdiyi bu nanəcib, namərd, sərsəm, bic və təhlükəli qonşularımızın dərslərini axıra qədər verək və erməni xisləti deyilən problemin övladlarımıza, sonrakı nəsillərimizə verə biləcək mümkün təhlükələrin qarşısını alaq, özü də birdəfəlik alaq! Bunun üçün isə unutmamalıyıq - bədnam düşmənin ilansayağı başı yalnız əzilməmlidir, bütövlükdə qopardılıb-atılmalıdır, mütləq və qeyd-şərtsiz!

***Rövşən RƏSULOV***

TƏRS BAXIŞ-ÖZƏL

***Dəyişkən havasına, daim əsən küləyinə nəzər salsaq Bakıda yazın gəlişi bir o qədər də hiss olunmur. Bir gün günəşli, bir gün çirkinli havası ilə Bakı daha çox payızı xatırladır Bayramın çoxları üçün əsas atributu isə bayram günü açacağımız süfrə, o süfrəyə düzəcəyimiz naz-nemətdir. Bu yazımızda ən yaxşı və eyni zamanda ən qənaətli bayram süfrəsini necə açmaq barədə xırda detallar yer alacaq.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti çərçivəsində hazırlanıb.*



ARAŞDIRMA

# Novruz süfrəsi neçəyə başa gəlir?

Hamımız bilirik ki, xalqımızın min illərdən bəri ən əziz bayramı olan Novruz bayramında süfrəmizin "olmazsa olmaz" atributları olmalıdır. Bu səmənidən tutmuş bayram plovuna qədər bir çox elementi əhatə edən bir detaldır. Bayram plovu, bayram xonçası, çərəzlər, səməni, meyvələr- ümumiyyətlə bir süfrədə nələr olmalıdırsa o ərzaqların bazar-dükan qiymətləri ilə sizi tanış etmək qərarına gəldik. Yazıdakı qiymətlər orta bazar qiymətləri əsasında hazırlanıb.

Deməli, 4-5 nəfərlik ailə üçün bayram süfrəsinin neçəyə başa gəldiyini araşdıraq. Beləliklə, bayramda dəmləyəcəyiniz plov üçün normal düyünün bir kiloqramını 3 manata əldə edə bilərsiniz. Plovun qarası üçün lazım olan ət və ya toyuq üçün də pul xərcləmək lazımdır. Əgər plovun qarasını qırmızı ətdən hazırlamaq istəsəniz bunun üçün sizə qoyun əti lazım gələcək ki, onun da kilosu 14-15 manat arasında dəyişir. Əgər plovun qarasını toyuqdan hazırlamaq istəsəniz bunun üçün sizə 5-7 manat lazım olacaq. Plov üçün gərək olacaq şabalıdın kiloqramı 7-8 manatdır, kişmişin qiyməti isə təxminən 5-10 manat civarında dəyişir. Digər meyvə quruları isə 5-15 manat arasında dəyişir. Bayram aşı üçün kərə yağı lazımdır ki onun da kiloqramı 17-20 manat arasındadır. Deməli təxminən hesablasaq, bayram aşı bu ailəyə ən azı 30 manata başa gələcək.





Bayram plovundan başqa digər yeməklər üçün isə minimum 30 manat pul lazım olacaq. Bu dolma, ləvəngi, qovurma kimi yeməklər ola bilər. Siz öz süfrənizdə nisbətən baha başa gələcək olan müxtəlif kababları da görmək istəsəniz 4-5 nəfərlik bir ailənin bayram süfrəsindəki kabab üçün minimum 30 manat lazımdır. Azərbaycan xalqı daha çox ətli yeməkləri sevdiyi üçün bayramdakı yeməklərdən ən azı ikisi ət tərkibli olur.

Bayram süfrəsinin bəzəyi hesab edilən balıq isə növündən asılı olaraq 5-20 manata təklif edilir. Qoz-fındıq-badamın kilosu 5-10 manat arasında, ləpəsinin qiyməti isə 15-20 manat civarındadır. Meyvələr üçün isə nisbətən az pul lazımdır. 1 kq. alma 1 man, armud 2 man., nar 4 man., üzüm- 3 man., 1 ədəd ananas 5 manata təklif edilir. Mandarin və heyva üçün hərəsinə 2 man. kifayət edər. Bayram xonçasına qoyulacaq innabı 4 manat, iydəni 5 manata almaq olar.

Bayramın əsas atributlarından biri olan səməni isə bu il əvvəlki illərə nisbətən daha ucuzdur. Əgər orta ölçülü bir səməni üçün ötən il 1 manat ödəməli olurduqsa bu il bu qiymət 2 manat təşkil edir. Daha bahalı və daha böyük səməni də almaq mümkündür. Ümumiyyətlə bayram süfrəsinə qoyacağımız səmənini 2 manatdan tutmiş 20 manata qədər müxtəlif ölçülərdə ala bilərsiniz. Əslində isə səmənini hər kəs evdə göyərtməlidir. Bu, bayramın əsas qayəsidir- evdə bərəkət rəmzi, bayram simvolu kimi qəbul olunur.

Bayram xonçasına, eləcə də bayram süfrəsinə qoymaq üçün Novruzun ən vacib 5 atributu da var. Bunlar paxlava, şəkərbura, badambura, qurabiyyə və qoğaldır. Bütün bayram boyunca süfrələrimizin ən ləziz şirniyyatlarından olan paxlavanın hazırlanması üçün də kifayət qədər pul xərcləmək lazım gəlir. Belə ki, bir məcməyi paxlava və şəkərbura üçün bizə aşağıdakı ərazaqlar lazım olacaq. 1 kq. un - 1 manat, 1 kq. şəkər tozu - 1.50 manat, 1 kq. qoz-fındıq ləpəsi - 15 manat, 0.5 kq. yağ - 10 manat, yumurta, maya və lazım olan ədvalar üçün isə 5 manat kifayətdir. Azı 30 manat xərc tutacaq.

4-5 nəfərlik bir ailə üçün digər şirniyyatlar üçün isə nisbətən azsayından asılı olaraq təxminən 15-20 manat tələb olunur. Təbiidir ki, hər əziz süfrənin ən az 2 çeşid salatı, qəlyanaltısı olur. Salatlar üçün bizə 20 manat kifayət edər. Bu pula xama, göy noxud, konservləşdirilmiş qarğıdalı, mayonez və s. kimi salat elementləri ala bilərik.

Geriyə qaldı bayram içkiləri. Adətən Azərbaycanda Novruz axşamı spirtli içki içilmir. Bu dədə-babadan qalma adətdir. Bu bayram Azərbaycanda müqəddəs hesab edildiyi üçün bayram gecəsi spirtli içkilərdən uzaq durulur. Amma hər bir halda bayram axşamında süfrəsində ən azı şərab görmək istəyən oxucumuz üçün qeyd etmək lazımdır ki, normal şərabı azı 10 manata əldə etmək olar. Yox, əgər daha keyfiyyətli şərab içmək istəyirsinizsə bunun üçün 30-50 manatınızdan keçməli olacaqsınız. İndi 200-500 manata da şərab təklif edilsə də bu şərabdan içmək çox insana müyəssər olmur. Meyvə şirələri və müxtəlif sular üçün isə 10 manat yetərlidir.

Beləliklə, Novruz bayramında açılacaq süfrə üçün uyğun qiymətlər belədir. Ümumiləşdirsək, 4-5 nəfərlik ailənin bayram süfrəsi üçün ən azı 100 manat pul lazımdır. Bir qədər qənaət etsək bu qiymətləri öz büdcəmizə uyğun hala da gətirə bilərik.

Bayram axşamında ən vacib olan şey bütün ailənin birlikdə olması, böyüklərlə eyni süfrə arxasında oturmaqdır. O süfrə bəzən sadə, bəzən zəngin ola bilər. Əsas olan süfrə arxasında bütün səmimiyyətimizlə və könül xoşluğumuzla oturmağınız və bu əziz bayramı birgə qeyd etməyimizdir.

2022-cü ilin Novruzu hamımıza ruzi-bərəkət, sevgi gətirsin. Ocaqlarımız sönməsin, süfrəmiz bol, məhsulumuz bərəkətli, qəlbimiz təmiz olsun. Bu bayram elimizə obamıza xoş günlərin müjdəçisi olsun. Bayramınız mübarək!

***Lalə Mehralı***

SON SƏHİFƏ

Səs

19 mart
2022-ci il

# Alves: "Messi "Barselona"dan getməyə məcbur oldu"




***"Barselona"nın müdafiəçisi Dani Alves Lionel Messinin PSJ-də oynamasını yersiz sayır. Qol.az "ESPN Deportes"a istinadən xəbər verir ki, braziliyalı futbolçu sabiq komanda yoldaşı barədə danışarkən deyib: "Düşünürəm ki, Messi PSJ-də oynamaqdan həzz almır. Əks halda o, əla performans göstərərdi. Messi xoşbəxt olanda insanlar onun oyununa heyran olurlar.***

Mənə görə, Messinin yeri PSJ deyil. Məncə, "Barselona" Lionelin sevdiyi işlə məşğul olması üçün ən yaxşı komanda idi. O, həmişə məndən soruşurdu: "Barselona"dan daha yaxşı yeri harada tapa bilərsiniz? Mən əmin oldum ki, "Barsa"dan yaxşısı yoxdur. Leo burdan gedəndə mən də ona eyni mesajı göndərdim. Nədənsə Messi getməyə məcbur oldu. Amma ümid edirəm ki, o, qayıdacaq. Bunun mümkün olub- olmadığına əmin deyiləm. Amma geri qayıdarsa, mən də burada olmaq istəyirəm ki, yenidən birlikdə oynayaq".

# Stressli iş həyatı insan psixologiyasına necə təsir edir?



***"Stressli iş həyatı insanın şəxsi həyatına təsir edir. Bəzi insanlar var ki, sevmədiyi işlə məşğul olurlar və bu işin əlavə stresini yaşayırlar. Bütün işlərdə müəyyən bir nöqtələr olur ki, orda stress yaşayırlar". Bu fikirləri SİA-ya açıqlamasında psixoloq Fərqanə Mehmanqızı bildirib.***

Onun sözlərinə görə, stressli iş həyatı təbii ki, insana müəyyən dərəcədə təsir edir: "Nəzərə alsaq deyə bilərik ki, səhər 9-dan axşam 6-ya qədər biz vaxtımız iş yerimizdə keçiririk. Yəni iş bizim həyatımızın çox hissəsini təşkil edir və yaşadığımız stress bizim şəxsi həyatımıza, xarakterimizə, həyata baxışımıza müsbət və mənfi tərəfdən təsir edə bilir. Hələ ki, iş yerində insan stress yaşayırsa aqressiv və fobialı ola bilər. Psixoloji-həssas insanlarda stress bir çox nüanslara yol aça bilir, hətta intihara belə səbəb olur. Ona görə stresdən qorunmağın yollarını düşünmək lazımdır. Hər insan individual olduğu üçün, hər insanın müxtəlif yaşam tərzi, xarakteri olduğu üçün stresdən qorunma qalxanı olmalıdır. Bunun üçün həmin insanlar nə etməlidir?

İnsan özünü tanımalı, özünü əzbərləməli və ən əsası özünü idarə edə bilməlidir. Özünü idarə edə bilməyən şəxs başqalarını idarə edə bilməz. Başqalarının ona olan münasibətini idarə edə bilməz. Özünün ətrafa münasibətini idarə etmlidir ki, ətrafın ona olan münasibətini idarə etsin. Buna görə qıcığa qarşı reaksiyasını, həssaslığını idarə edə bilməlidir. İnsan var ki, çox stresli olduğu zaman yanlız qalıb sakitləşməyi üstün tutur. Elə insanlar da var ki, insan içində sakitləşir. Bəziləri kofe içərək, yemək yeyərək, yataraq sakitləşirlər. Bu insan xarakterinə xassdır. Elə insanlar da var ki, dava edir, əsəbini digərlərindən çıxarır, həmin insanın gününü qara edirlər. Belə insanlara vampir insanlar deyilir. Düşünürəm ki, belə insanlar hər kəsin həyatında var. Gündəlik olaraq həyatımızda o qədər stress var ki, ailədə, işdə, qohumlarla münasibətdə, öz daxilimizdə belə bunlarla başa çıxa bilmirik. Yaşadığımız uğursuzluqlar, qarşı tərəfin səhv düşüncələri, empatiya duyğularının aşağı olması bunların hamısı işimizdə stress yaşamağımıza səbəb olur. Ona qədər də mümkün qədər stressdən uzaq durmalıyıq".

*Abutel İlhamqızı*

# Məşhur sima boşanır?



Məşhur türk sima Ebru Şallı 2019-cu ildə Uğur Akkuşla evlənib. SİA xarici mətbuata istinadən xəbər verir ki, xoşbəxt ailə quran Şallı sosial şəbəkədəki səhifəsindən Akkuş soyadını silməklə diqqət çəkib.

Qeyd edək ki, cütlük bir müddətdir ki, Türkiyədə yoxdur. 2011-ci ildə küveytli sərmayeçiləri aldatdığı iddiası ilə mühakimə olunan Ebru Şallının həyat yoldaşı Uğur Akkuşun 8 il 4 ay həbs cəzası aldığı iddia edilib. Məhkəmə qərarı ilə Uğur Akkuşun evinin və ofisinin girov qoyulduğu, məşhur cütlüyün bu iddiaya görə ölkəyə qayıtmayacağı və Amerikada məskunlaşdıqları iddia edilib. Onun haqqında yayılan söz-söhbətləri təkzib edən Akkuş, "İndiyə qədər 65 ölkəni gəzmişəm və hər il dünyanın bir yerinə gedirik. Hər dəfə gedəndə belə şeylər olur".

Bütün iddialara baxmayaraq əri ilə birlikdə olan Ebru Şallının indi boşanma qərarı aldığı iddia edilib. Keçmiş model sosial media hesabından "Akkuş" soyadını silib.

*Ayşən Vəli*

# Qadınlar öldükdə niyə kişilərdən daha dərin basdırılır?

***Deyilənə görə, qadın dünyasını dəyişəndə dəfn etmək üçün qəbri daha dərin qazılır. Bunu çox vaxt şəriətlə əlaqələndirirlər. Hətta bir çox türk xalqları və farslar bunu adət kimi icra edirlər. İslam mənbələrinə görə isə bu doğru hal deyil. İslam dinində qadının kişiyə nisbətən daha dərindən basdırılması qəbuledilməzdir. Belə bir anlayışa sahib olmaq islama ziddir.***



Eyni zamanda, bu, İslamda qadın və kişi bərabərliyinin pozulmasına səbəb olan amillərdən sayılır. Bu baxımdan qadınların qəbrinin dərin qazılmasının dinlə heç bir əlaqəsi olmadığını deyə bilərik. Belə ki, İslam dininə görə qadın və kişinin ibadətində heç bir fərq yoxdur. Sonradan Hənəfi kimi bəzi məzhəblər qadın və kişilərin namazda durma şəklinda fərq ortaya qoyublar. Lakin başqa məzhəblərdə belə bir fərqlilik yoxdur. Fərq sadəcə ondan ibarətdir ki, müəyyən hallarda qadınların üzərindən ibadət etmək vacibliyi götürülür. Tam olaraq təmizləndikdən sonra qadın yenidən ibadət etməyə davam edir. Demək ki, ibadət formalarında fərq olmadığı kimi dəfndə də heç bir fərqlilik olmamalıdır.

Belə bir fikir də irəli sürülür ki, guya qadın qəbirdə pis qoxu verdiyi üçün daha dərin basdırılır. İslama görə isə istər qadın, istərsə də kişi bədəni çürüdükdə eyni qoxu hiss olunur. Kişi və qadın fərqi yoxdur, hər iki bədən iylənə bilər.

Qadın və kişi qəbirlərinin dərinlik fərqi şəriətdə vacib deyil, sadəcə tövsiyə olunan məsələdir. Qadın və kişilərin naməhrəm yerləri, əzaları vardır ki, bu orqanlara başqalarının baxması qadağandır. Kişidə bu yerlər qurşaqla diz arasında olduğu halda, qadında isə üz, əllər və topuqdan aşağı ayaqlardan başqa bütün yerlər naməhrəm sayılır. Ona görə qadın kişidən dərinə basdırılır ki, Qiyamət günü dirilib qəbirdə ayaq üstə qalxanda qadının naməhrəm yerləri görünməsin. Yəni, qadının qəbrinin dərin qazılması ona olan ehtiramdan irəli gəldiyi deyilir.

Bəzən el arasında yarızarafat-yarıciddi şəkildə qadınların dillərinə görə dərin basdırıldığı da deyilir. Təbii ki, bu söyləmlərin heç bir tibbi və dini əsası yoxdur.

*Ləman Əlizadə*

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3220